HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 43 (834) ■ 2 noyabr 2016 | www.vergiler.az | Qiyməti: 55 qəp.

# Sosial inkişafa xidmət edən siyasət

## 2017-ci ilin dövlət büdcəsi də sosialyönümlü olacaq

Dünyada maliyyə-iqtisadi böhranının yeni mərhələyə keçməsinə baxmayaraq, ölkəmizdə görülən qabaqlayıcı tədbirlər sayəsində makroiqtisadi sabitlik təmin olunub. Milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn sərmayələrin qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi aparılan iqtisadi siyasətin düzgünlüyünü təsdiq edir.



Azərbaycan dünyada maliyyə böhranının dərinləşdiyi bir dövrdə yeni qlobal iqtisadi və siyasi çağırışlara adekvat olaraq sosial-iqtisadi islahatları davam etdirir. 2016-cı ilin ötən on ayında əldə olunan nəticələr də deməyə əsas verir ki, müstəqil Azərbaycan böhran şəraitində belə davamlı inkişaf edir.

İqtisadi şaxələndirmənin nəticəsi olaraq qeyri-neft sektoru üstün artım tempinə malikdir. Qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin artırılması, regionların tarazlı və davamlı inkişafı, yerlərdə yeni istehsal müəssisələrinin açılması, işsizlik probleminin aradan qaldırılması, əhalinin sosial rifahının gücləndirilməsi istiqamətində ardıcıl addımlar atılır. İqtisadiyyatın liberallaşdırılması, xarici investisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsi, ölkədə əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması kimi vacib məqamlar cənab İlham Əliyevin iqtisadi siyasətinin prioritet istiqamətləri sırasında vurğulanmalıdır. Bu gün Azərbaycan iqtisadiyyatının təxminən 70 faizi qeyri-neft sektorunda formalaşır. Ölkəmizdə son 13 ildə ÜDM-in həcmi üç dəfə artıb, yoxsulluq səviyyəsi 2003-cü ildəki 49 faizdən 5 faizə enib.

İnsan amilini əsas tutan sosialyönümlü iqtisadi siyasət nəticəsində son illər Azərbaycanda işsizliyin səviyyəsində də nəzərəçarpacaq dərəcədə azalma müşahidə olunur. Qeyri-neft sektorunun və sahibkarlığın inkişafı, yeni müəssisələrin işə salınması istiqamətində həyata keçirilən sistemli tədbirlər əməkqabiliyyətli əhalinin iqtisadi fəallığının yüksəlməsinə, eləcə də ölkənin məşğulluq strategiyasının səmərəliliyinə imkan verir. Bütün mötəbər beynəlxalq maliyyə qurumları Azərbaycanda işsizliklə, yoxsulluqla bağlı mübarizəni çox yüksək qiymətləndirirlər.

Son illər Azərbaycanda yerli istehsala böyük əhəmiyyət verilir, həm dövlət, həm də özəl sektora vəsait qoyulur. Ölkədə əlverişli biznes mühiti formalaşdırılıb. Azərbaycanda iqtisadi və maliyyə sektorunun şəffaflaşması prosesi davam etdirilir. Təsadüfi deyil ki, Davos Dünya İqtisadi Forumu Azərbaycanı ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliyinə görə 37-ci, MDB məkanında isə yenidən 1-ci yerə layiq görüb. Dünya Bankının 190 ölkənin biznes mühitini qiymətləndirən «Doing Business 2017» hesabatında Azərbaycan 65-ci pillədə qərarlaşıb.

Azərbaycan dünyada üç və daha çox islahat aparan 29 ölkədən biridir. Belə ki, «Xarici ticarətin aparılması» göstəricisi üzrə beynəlxalq ticarət zamanı idxal və ixrac bəyannamələrinin elektron qaydada verilməsi sisteminin tətbiq edilməsi, «Vergilərin ödənilməsi» göstəricisi üzrə nəqliyyat vasitələrinə tutulan vergi üzrə sadələşdirilmənin aparılması və «Elektrik təchizatı şəbəkələrinə qoşulma» meyarı üzrə yeni qoşulmalar prosesi zamanı yeni istifadəçilərin qoşulma nöqtələrinin müəyyən edilməsi üçün sərf olunan vaxta qənaət edən məlumat bazasının yaradılması hesabatda mühüm islahatlar kimi vurğulanıb.

Dövlət başçısı hər bir mərhələ üçün qarşıda duran əsas vəzifələri düzgün müəyyənləşdirir, islahatların sistemli və ardıcıl şəkildə, təkamül yolu ilə gerçəkləşdirilməsinə çalışır. Respublikanın investisiya və sosialyönümlü mahiyyət daşıyan milli inkişaf modeli tərəqqi prosesində yeni keyfiyyət göstəricilərinin əldə olunması, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, faydalı məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması üçün milli sahibkarlığın hərtərəfli dəstəklənməsi kimi vacib məsələləri özündə ehtiva edir. Dövlətin vətəndaşların həyati tələbatlarının ödənilməsinə göstərdiyi qayğı özünü bilavasitə sosial təminat sistemində büruzə verir. Vətəndaşların sosial ehtiyaclarının dolğun şəkildə ödənilməsinə xidmət edən iqtisadi siyasəti ümumən insan amilinin inkişafına təkan verir.

Prezident İlham Əliyev cari ildə aztəminatlı təbəqənin alıcılıq qabiliyyətinin artırılması, milli valyutanın devalvasiyasının və qiymət artımının təsirlərinin azaldılması məqsədilə müxtəlif sosial ödənişlərin, o cümlədən əməkhaqlarının, pensiyaların, müavinətlərin, təqaüdlərin və kompensasiyaların artırılması barədə 25-dən artıq fərman və sərəncam imzalayıb. Dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsi müəyyən çətinliklər yaratsa da, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatlar ölkəmizin dayanıqlı inkişafını təmin edərək real büdcə öhdəliklərinin tam həcmdə yerinə yetirilməsinə imkan verib.

Prezident İlham Əliyev növbəti ildə də böyük sosial layihələrin icra ediləcəyini bildirib: «Ümumiyyətlə, gəlirlərimizin azalmasına baxmayaraq, biz sosial sahədə tam vəsaiti təmin edirik. Heç bir sosial təşəbbüs və layihə ixtisar olunmadı. 2017-ci ildə də büdcəmiz sosialyönümlü olmalıdır və əlbəttə ki, investisiyalar üçün də kifayət qədər vəsait nəzərdə tutulmalıdır. Biz əvvəlki illərdə dövlət investisiyalarına daha çox üstünlük verirdik. Bu da təbiidir, çünki biz bir çox layihələri, xüsusilə infrastruktur layihələrini icra etməli idik. Əgər biz onları icra etməsəydik, bu gün, ümumiyyətlə, inkişafdan söhbət belə gedə bilməzdi. Nə kənd təsərrüfatı, nə turizm, nə digər sahələr inkişaf edə bilməzdi. Ona görə dövlət investisiya qoyuluşu xüsusi əhəmiyyət daşıyırdı və biz son illər ərzində bu layihələrin bir çoxunu artıq icra etmişik. Təbii ki, 2017-ci ilin dövlət investisiya proqramı indi hazırlanır və yaxın vaxtlarda mənə təqdim ediləcək. Ancaq biz özəl sektorun investisiyalarını daha da böyük həcmdə cəlb etməliyik.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində də bu gün çox ciddi addımlar atılıb. Deyə bilərəm ki, sahibkarlar bu işlərə artıq böyük ruh yüksəkliyi ilə qoşulurlar. Ölkəmizdə böyük ruh yüksəkliyi var, xüsusilə kənd təsərrüfatı, emal və sənaye sektorlarında. Bakıda, böyük şəhərlərdə, bütün şəhər və rayonlarımızda çox böyük fəallıq müşahidə olunur. Bu da, əlbəttə ki, həm bizim siyasətimizin təzahürüdür, - çünki özəl sektor sahibkarlığının inkişafı üçün çox ciddi addımlar atılıb, - eyni zamanda bizim sahibkarlarımızın da məsuliyyətini göstərir. Sahibkar qazandığı vəsaiti ölkə iqtisadiyyatına qoymalıdır. Bu istiqamətdə 2017-ci ildə çox ciddi addımlar atılacaq».

Azərbaycanın iqtisadi inkişafının əsas hədəfi rəqabətqabiliyyətliyin yüksəldilməsi və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası yolu ilə uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlığını təmin etməkdir. Azərbaycanın sosial-iqtisadi inkişafının yeni mərhələsi həm də sahibkarlar ordusunun milli iqtisadiyyatın aparıcı təbəqəsi kimi önə çıxması ilə səciyyəvidir. Bu, təsadüfi olmayıb, dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən irəli gəlir. Sərbəst bazar iqtisadiyyatı münasibətlərinin fəal tərəfdarı kimi çıxış edən cənab İlham Əliyev iqtisadi inkişaf prosesində sahibkarlığın rolu barədə əsaslı konsepsiyaya malikdir. Ölkə rəhbərliyinə gəlişinin ilk günlərindən Azərbaycandakı yerli və xarici sahibkarların qüdrətli hamisinə çevrilmiş dövlət rəhbərinin həyata keçirdiyi məqsədyönlü siyasət hesabına Azərbaycanda özəl sektor yeni inkişaf dönəminə qədəm qoymuş, sahibkarlığın inkişafına diqqət daha da artırılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisdə qəbul olunmuş qanunla 2015-ci il noyabrın 1-dən sahibkarlıq subyektlərində yoxlamaların 2 il müddətinə dayandırılması da bu islahatların praktik davamı kimi xüsusi vurğulanmalıdır. Bu addımlar mahiyyətcə qlobal maliyyə böhranı dövründə təkcə sahibkarlığın, qeyri-neft sektorunun inkişafına deyil, həm də demokratik inkişafın, sabitliyin qarantı olan orta burjuaziyanın formalaşmasına yönəlmişdir.

Azərbaycan BMT-nin üzvü olan dövlətlərin 2015-ci ilin 25-27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə də qoşulub. Qarşıya qoyulmuş məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə Minilliyin İnkişaf Məqsədlərinə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir. Dayanıqlı İnkişaf Məqsədlərinin icrasının institusional və siyasi baxımdan kompleks yanaşma tələb etdiyini nəzərə alaraq, Azərbaycanda daha dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının təmin edilməsi üçün səmərəli milli icra mexanizminin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması ilə bağlı fərman imzalaması da həmin məqsəddən irəli gəlir.

Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının əsas məqsədi 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyəti olan, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetləri və onlara dair göstəriciləri müəyyənləşdirməkdən, ölkədə sosial-iqtisadi sahələri əhatə edən dövlət proqramlarının və strategiyaların Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmasını təmin etməkdən ibarətdir.

Vətəndaşların yaşayış tərzində, sosial rifah halında özünü qabarıq göstərən müsbət keyfiyyət dəyişiklikləri, hər bir hüquqi dövlətdə ictimai-siyasi sabitliyin başlıca təminatçısı sayılan orta təbəqənin - milli sahibkarlar ordusunun mövqelərinin ildən-ilə möhkəmlənməsi ümumbəşəri xarakter daşıyan demokratik-hüquqi normaların ictimai rəydə düzgün dərk olunmasına əlverişli şərait yaradır. Ölkənin iqtisadi uğurlarını hər bir vətəndaş öz gündəlik həyatında, məişətində hiss edir. Azərbaycan təkcə sosial-iqtisadi deyil, siyasi müstəvidə də bir çox problemləri geridə qoyaraq daha böyük nailiyyətlər qazanacaq.

**«Azərbaycan» qəzeti,**
*1 noyabr 2016-cı il*

# Dövlət başçısı Azərbaycanda yeni təyin olunmuş səfirlərlə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristofer Con Kuterin etimadnaməsini qəbul edib. Söhbət zamanı ölkələrimiz arasındakı əməkdaşlıqdan bəhs olunub.



Kristofer Con Kuter Kanadanın bir sıra tanınmış şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən yüksək texnologiyalar, nəqliyyat, turizm sektorlarında fəaliyyət göstərdiklərini qeyd edib. Azərbaycanlı tələbələrin Kanada universitetlərində təhsil aldıqlarını məmnunluqla xatırladan səfir ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsinin önəmini vurğulayıb, ölkələrimiz arasında əlaqələrin gücləndirilməsi üçün öz səylərini əsirgəməyəcəyini bildirib.

Kanada şirkətlərinin uzun illər Azərbaycanda fəaliyyətinə toxunan Prezident İlham Əliyev həyata keçirilən birgə layihələrin əhəmiyyətini qeyd edib, Bakıda Kanada şirkətlərinə məxsus beşulduzlu iki otelin - «Four Seasons» və «Fairmont»un regionda ən yaxşı otellərdən olduqlarını bildirib. Dövlətimizin başçısı «Fairmont» otelinin yerləşdiyi müasir memarlıq üslubunda inşa edilən «Alov qüllələri» kompleksinin paytaxtımızın yeni simvollarından biri olduğunu deyib. Prezident İlham Əliyev Kanada şirkətləri ilə əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Həmin gün Prezident İlham Əliyev Cənubi Sudan Respublikasının, Uruqvay Respublikasının, Şri-Lanka Demokratik Sosialist Respublikasının, Cənubi Afrika Respublikasının, Banqladeş Xalq Respublikasının və Cibuti Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin də etimadnamələrini qəbul edib.

Diplomatlarla görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlığımızın inkişaf etdirilməsi istiqamətində təşəbbüslərin artırılması, əlaqələrin müxtəlif istiqamətlərdə, xüsusilə iqtisadi, enerji, ticarət, səhiyyə və təhsil sahələrində genişləndirilməsinin vacibliyi qeyd olunub.

## BU NÖMRƏMİZDƏ

TACİKİSTAN RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ 2

TRANSFER QİYMƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ SAHƏSİNDƏ QANUNVERİCİLİK BAZASI YARADILIR 3

AZƏRBAYCAN «DOING BUSINESS 2017» HESABATINDA «BİZNESƏ BAŞLAMA» İNDEKSİ ÜZRƏ DÜNYADA 5-Cİ YERDƏ QƏRARLAŞIB 4

ELEKTRON XİDMƏTLƏR ÜZRƏ İNZİBATİ REQLAMENTLƏR TƏKMİLLƏŞDİRİLİB 5

# Tacikistan Respublikasının nümayəndə heyəti ilə görüş

Vergilər Nazirliyində Tacikistan Respublikasının İnvestisiyalar və Dövlət Əmlakının İdarə edilməsi üzrə Dövlət Komitəsinin sədr müavini xanım Nigina Anvarinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Vergilər nazirinin müavini Sahib Ələkbərov qonaqları salamlayaraq, onlara ölkədə həyata keçirilən vergi siyasəti barədə məlumat verib. Bildirilib ki, vergi orqanları tərəfindən sahibkarlığın inkişafının dəstəklənməsi, özəl sektorun fəaliyyətinin genişləndirilməsi, investisiya qoyuluşlarının stimullaşdırılması, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qarşılıqlı etimada əsaslanan çevik və şəffaf mexanizmlər əsasında qurulması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişlərinə uyğun olaraq, bir sıra mühüm addımlar atılıb, o cümlədən vergi qanunvericiliyi və inzibatçılığında ciddi dəyişikliklər edilib. Azərbaycanda 2008-ci ildən «bir pəncərə» qeydiyyat sistemi fəaliyyət göstərir, 2011-ci ildən fiziki şəxslərin, 2012-ci ildən isə yerli investisiyalı kommersiya hüquqi şəxslərin elektron qeydiyyatına başlanıb. Azərbaycanda vergi dərəcələri əksər Avropa ölkələrindəkindən aşağıdır. Ölkədə geniş vergi güzəştləri mövcuddur, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi şəxslər, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən, sənaye və texnologiya parkları isə 7 il müddətinə əksər vergilərdən azaddırlar.

Vergilər Nazirliyinin vergi ödəyicilərinə xidmət sahəsində apardığı işlərə toxunan nazir müavini bildirib ki, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə iri şəhər və rayonlarda vergi ödəyiciləri üçün 56 xidmət mərkəzi yaradılıb və vergi orqanları tərəfindən vergi ödəyicilərinə 60-dək elektron xidmət göstərilir. Qeyd edilib ki, Vergilər Nazirliyi yanında Çağrı Mərkəzinin fəaliyyəti bütün ölkəni əhatə edir. Aparılan sosioloji araşdırmaların nəticələrinə əsasən, Vergilər Nazirliyinin rəsmi internet səhifəsi informasiya açıqlığı göstəricisinə görə 8 ildir ki, ölkənin mərkəzi icra hakimiyyəti orqanlarının saytları arasında birinci yeri tutur.

S.Ələkbərov vurğulayıb ki, Vergilər Nazirliyi tərəfindən sahibkarlığın inkişafının dəstəklənməsi, özəl sektorun fəaliyyətinin genişləndirilməsi üçün islahatlar davam etdirilir, yeni iqtisadi şəraitə uyğun strukturlar yaradılır. Cari ilin əvvəlindən başlayaraq həm qanunvericilik sahəsində, həm də inzibati idarəetmə sistemində ciddi islahatlar aparılıb, sahibkarlıq subyektlərinin sərbəst fəaliyyəti, yoxlamaların sayının minimuma endirilməsi, investisiya qoyuluşlarının stimullaşdırılması, vergi yükünün azaldılması, biznes mühitində şəffaflığın təmin edilməsi, qeyri-neft sektorunun inkişafına dəstəyin artırılması istiqamətində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilib.

Vergilər Nazirliyi beynəlxalq əlaqələrin qurulmasına xüsusi önəm verir və mütərəqqi beynəlxalq təcrübə Azərbaycanda uğurla tətbiq olunur. Həyata keçirilən uğurlu islahatlar nəticəsində Azərbaycan «Doing Business 2017» hesabatında mövqeyini daha da yaxşılaşdırıb və «Biznesə başlama» indeksi üzrə 5-ci yerdə, «Vergilərin ödənilməsi» indeksi üzrə isə 40-cı yerdə qərarlaşıb. Bu isə Azərbaycanın investisiya mühiti baxımından ən yaxşı təcrübəyə malik ölkələrdən biri olduğunun göstəricisidir. Bir ay əvvəl Azərbaycan Respublikasının 2013-cü ildən üzv olduğu İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Vergi Siyasəti və İnzibatçılığı Mərkəzi nəzdində «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum»un Qiymətləndirmə Qrupunun 24-cü iclasında ölkəmizin vergi sisteminin «əsasən uyğundur» kimi yüksək reytinqə layiq görülməsi tövsiyə olunub.



Xanım Nigina Anvari Azərbaycanın vergi sahəsində uğurlarını yüksək dəyərləndirib və ölkəmizin vergi siyasəti üzrə təcrübəsinin Tacikistan üçün də faydalı olacağına əminliyini ifadə edib. Görüşdə qonaqların sahibkarlıq subyektlərində sadələşdirilmiş verginin tətbiqi, sabit vergi sistemi, vergi yükü, vergi yoxlamaları, vergidən yayınma cəhdlərinə qarşı mübarizə və s. barədə Azərbaycanın təcrübəsi ilə bağlı sualları cavablandırılıb, maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

# Gənclər təşkilatlarının nümayəndələri Vergilər Nazirliyində

Gənclər Təşkilatları Milli Şurasının təşəbbüsü ilə Vergilər Nazirliyi və Şuranın üzvü olan gənclər təşkilatlarının birgə məlumat turu keçirilib. Tədbir çərçivəsində gənclər təşkilatlarının nümayəndələri ilə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Samirə Musayeva, Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Mahir Rəfiyev və nazirliyin digər aidiyyəti vəzifəli şəxslərinin birgə görüşü keçirilib.

Görüş zamanı gənclərə Azərbaycanda vergi sisteminin yaranma tarixi və perspektiv planlar, vergidən yayınma hallarının qarşısının alınması ilə bağlı həyata keçirilən tədbirlər, nazirlik tərəfindən ödəyicilərin ixtiyarına verilən mövcud xidmət kanalları, vətəndaşların maarifləndirilməsi istiqamətində görülmüş işlər barədə ətraflı məlumat verilib. Bildirilib ki, vergi ödəyicilərinin məlumatlandırılması, maarifləndirilməsi, müvafiq xidmətlərin göstərilməsi, əsasən, nazirliyin rəsmi internet saytı, «195» Çağrı Mərkəzi, vergi ödəyicilərinə xidmət mərkəzləri vasitəsilə həyata keçirilir. Nazirliyin rəsmi internet saytı Azərbaycan dili ilə yanaşı, rus və ingilis dillərində də fəaliyyət göstərir, yeni bölmələr yaradılır, məlumatların mütəmadi yenilənməsi təmin edilir. Bütün bunlar istifadəçilərin sayının ilbəil artmasına səbəb olub. Cari ilin 9 ayı ərzində istifadəçilər internet saytına 3.446.389 dəfə daxil olaraq müxtəlif xidmətlərdən istifadə edib. «Sual-cavab» bölməsinə vergi qanunvericiliyi və inzibatçılığı barədə daxil olan 1045 müraciət, «Onlayn bələdçi» xidmətinə edilən 16.468 müraciət qısa müddətdə cavablandırılıb. Dövlət saytları arasında internet resurslarının informasiya açıqlanması vəziyyətinin monitorinqlərinin nəticələrinə görə, Vergilər Nazirliyinin rəsmi internet saytı ardıcıl olaraq 8 dəfə ilin ən yaxşı internet resursu hesab edilib.

2004-cü ilin əvvəlindən Bakı şəhərini əhatə etməklə fəaliyyətə başlayan Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi 2006-cı il mayın 1-dən etibarən respublikanın bütün ərazisini əhatə edir: «Beynəlxalq Sertifikatlaşdırma və Sorğu Mərkəzləri İnstitutu tərəfindən 2011-ci ildə Vergilər Nazirliyinin Çağrı Mərkəzinə EN-15838 Standartlarına uyğunluq barədə sertifikat verilib. Cari ilin 9 ayı ərzində Çağrı Mərkəzi tərəfindən canlı rejimdə 163.836 müraciət cavablandırılıb, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,4% çoxdur. Avtomatik rejimdə elektron operator tərəfindən 22.703 dəfə vergi borcu barədə məlumat verilib, vergi ödəyicilərinin məlumatlandırılması üçün 1 milyondan çox SMS göndərilib».

Qeyd olunub ki, hazırda respublika üzrə 57 vergi ödəyicilərinə xidmət mərkəzi fəaliyyət göstərir və bu mərkəzlər vergi ödəyicilərinin praktiki məsələlərlə əlaqədar ən çox müraciət etdiyi yerdir. 2016-cı ilin yanvar-sentyabr ayları ərzində həmin mərkəzlərdə qəbul edilmiş vergi ödəyicilərinin sayı 359.958 nəfər, göstərilən xidmətlərin sayı isə 570.733 olub.

2002-ci ildən başlayaraq hər il Vergilər Nazirliyinin təşəbbüsü və Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının dəstəyi ilə ənənəvi olaraq 1 İyun - Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə «Vergilər uşaqların gözü ilə» adlı rəsm və inşa müsabiqələri keçirilir. Bu müsabiqədə uşaqlar öz təsəvvürlərinə uyğun rəsm və yazılarında vergi ödəməyin şərəfli vəzifə olduğunu, onun məcburi deyil, könüllü həyata keçirilməsinin vacibliyini əks etdirirlər. Bununla yanaşı, böyüməkdə olan gənc nəslin, xüsusən də gələcəyimiz olan uşaqların vergiyə dair biliklərini üzə çıxarmaq məqsədilə Bakı və respublikanın digər şəhərlərində şagird və tələbələr arasında tez-tez «Vergilər» mövzusunda müxtəlif yarışlar, müsabiqələr, intellektual oyunlar təşkil olunur.

Görüş zamanı gənclər təşkilatlarının nümayəndələrinin vergi qaninvericiliyinin tətbiqi və inzibatçılığı üzrə sualları ətraflı cavablandırılıb.

Şuranın sədri Seymur Hüseynov Vergilər Nazirliyinin gənclər üçün açıq bir qurum olduğunu, onların təşəbbüsünə dövlət qurumlarının dəstək göstərməsini yüksək qiymətləndirdiklərini vurğulayıb. O, ölkənin iqtisadi və sosial inkişafının əsasını təşkil edən dövlət büdcəsinin formalaşmasında vergi xidməti orqanlarının rolunun günbəgün artdığına da diqqət yönəldib. Qonaqlara «Vergi dostları» şəbəkəsi haqqında məlumat verilib, bu layihə üzrə gələcək əməkdaşlıq perspektivləri, həmçinin gənc sahibkarlara vergi güzəştləri, kənd təsərrüfatı sahəsində çalışan müəssisələrin vergitutma sisteminin yüngülləşdirilməsi məsələləri ətrafında da müzakirələr aparılıb.

Görüşdən sonra iştirakçılar Vergilər Nazirliyi yanında Çağrı Mərkəzi Departamentinin və Bakı Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət mərkəzinin iş prosesi ilə yaxından tanış olublar.

**Cari ilin 9 ayı ərzində Çağrı Mərkəzi tərəfindən canlı rejimdə 163.836 müraciət cavablandırılıb, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,4% çoxdur**

# Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığı yüksələn xətlə inkişaf edir

**Noyabrın 1-də Heydər Əliyev Mərkəzində VII Azərbaycan-Rusiya Regionlararası Forumu işə başlayıb. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə keçirilən Forumda Azərbaycan və Rusiyanın dövlət rəsmiləri, parlament və icra hakimiyyəti orqanlarının nümayəndələri, iqtisadiyyatın sənaye, turizm, kənd təsərrüfatı, tikinti, ticarət, konsaltinq, logistika, əczaçılıq, İKT, maliyyə və s. sahələrində fəaliyyət göstərən sahibkarlar və KİV təmsilçiləri iştirak edir. Foruma Rusiyanın 9 subyektindən 250-dən çox, Azərbaycan tərəfindən isə 300-dək olmaqla, ümumilikdə 600-ə yaxın iştirakçı qatılıb.**

Forumun rəsmi açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov və Rusiya Federasiyası Prezidentinin xarici ölkələrlə regionlararası və mədəni əlaqələr idarəsinin rəisi Vladimir Çernov dövlət başçılarının Forum iştirakçılarına təbrik məktublarını oxuyublar.

Forumda çıxış edən Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, Azərbaycanda Rusiya kapitallı 600-ə yaxın şirkət fəaliyyət göstərir. Son illər Rusiya tərəfindən Azərbaycan iqtisadiyyatına 3 milyard ABŞ dollarından çox investisiya qoyulub. Azərbaycan isə Rusiya iqtisadiyyatına 1 milyard dollardan çox birbaşa investisiya yönəldib. O, 2015-ci ildə keçirilmiş Azərbaycan-Rusiya Regionlararası Forumundan ötən müddətdə ölkəmizdə 10-a yaxın biznes forum, «dəyirmi masa» və işgüzar görüşün keçirildiyini, belə tədbirlərin Azərbaycan və Rusiyada yaradılmış əlverişli investisiya mühitinin göstəricisi olduğunu bildirib. Şahin Mustafayev Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə qəbul edilmiş yeni islahatlar proqramı barədə Forum iştirakçılarını məlumatlandırıb. Qeyd olunub ki, sahibkarlıq subyektlərində aparılan yoxlamalar dayandırılıb, lisenziyalaşdırılmış fəaliyyət növlərinin sayı əhəmiyyətli dərəcədə azaldılıb, sahibkarlığa dövlət dəstəyi gücləndirilib, elektron xidmətlərdən istifadə imkanları genişləndirilib, investisiya qoyuluşu və qeyri-neft ixracı stimullaşdırılıb.

Rusiya Federasiyasının iqtisadi inkişaf nazirinin müavini Aleksandr Sıbulski çıxışında Forumun iki ölkənin dövlət və regional hakimiyyət orqanları arasında dialoq üçün səmərəli platforma olduğunu qeyd edib, tədbirin əməkdaşlığın gələcək inkişafında əhəmiyyətli rol oynayacağını, Azərbaycan-Rusiya işgüzar tərəfdaşlığı üçün yeni perspektivlər açacağını diqqətə çatdırıb. Aleksandr Sıbulski Azərbaycan və Rusiya arasında iqtisadi və ticarət sahəsində əməkdaşlıq barədə məlumat verib, Rusiya-Azərbaycan və Azərbaycan-Rusiya işgüzar şuralarının yaradılmasının təqdirəlayiq olduğunu bildirib. Qeyd edilib ki, Rusiyadakı sənaye parklarında əməkdaşlıq üçün geniş imkanlar var və artıq Azərbaycan iş adamları «Lotos» iqtisadi zonasına maraq göstərirlər. Bundan başqa, sənaye, energetika, nəqliyyat, xidmət, humanitar və s. sahələrdə əməkdaşlıq imkanları diqqətə çatdırılıb.

Sonra Azərbaycan və Rusiya arasında əməkdaşlığa dair 12 sənəd - Qəbələ Rayon İcra Hakimiyyəti ilə Rusiya Federasiyasının Stavropol vilayətinin Kislovodsk kurort şəhəri Administrasiyası arasında əməkdaşlığa və qardaşlaşmaya dair Saziş, Bakı şəhərinin Nərimanov Rayon İcra Hakimiyyəti ilə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında əməkdaşlıq barədə Niyyət Protokolu, Rusiya Federasiyasının Həştərxan vilayətinin «Nərimanov rayonu» bələdiyyə təsisatı ərazisində yaradılmış sənaye-istehsal tipli Xüsusi İqtisadi Zonada sənaye-istehsal fəaliyyətinin həyata keçirilməsi haqqında Saziş, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə Stavropol diyarının Ticarət-Sənaye Palatası arasında əməkdaşlığa dair Saziş, AZPROMO ilə Dağıstan Respublikasının Sahibkarlıq və İnvestisiya Agentliyi arasında əməkdaşlıq haqqında Memorandum, AZPROMO və Xəzər regionunda Xarici İqtisadi Fəaliyyət Assosiasiyası arasında əməkdaşlıq barədə Memorandum, Azərbaycan Tibb Universiteti ilə Stavropol Dövlət Tibb Universiteti arasında əməkdaşlığa dair Çərçivə Sazişi, Quba Turizm İnformasiya Mərkəzi ilə «Dərbənd 2000» Turizm Mərkəzi arasında turizmin inkişafı sahəsində birgə fəaliyyət haqqında Saziş, Xaçmaz Turizm İnformasiya Mərkəzi ilə «Dərbənd 2000» Turizm Mərkəzi arasında turizmin inkişafı sahəsində birgə fəaliyyət haqqında Saziş, Azərbaycanın Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası ilə Xəzər regionunda Xarici İqtisadi Fəaliyyət Assosiasiyası arasında əməkdaşlığa dair Memorandum imzalanıb. Forum çərçivəsində, həmçinin «Bentonit» MMC, «ADY Exspress» MMC və «AzRosPromİnvest» MMC arasında Strateji Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Memorandum və Azərbaycanın «Qlass Haus» şirkəti ilə Dağıstan Respublikasının «Xəzər Vərəqə Şüşə Zavodu» ASC arasında mallar təchizatı üzrə Niyyət Sazişi imzalanıb.

# Vergi yükünün azaldılması xarici sərmayələrin cəlb olunmasına xidmət edir

Azərbaycan hökuməti həyata keçirilən yeni islahatlar kursuna əsasən, xarici şirkətlərin hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni şəraitin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı əlavə tədbirlər görməyi planlaşdırır. Əcnəbi iş adamlarına güzəştlərin tətbiq edilməsi, bəzi imtiyazların verilməsi də gündəmdədir. İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri Samir Vəliyev bildirib ki, Azərbaycanda xarici şirkətlərin fəaliyyətini stimullaşdırmaq və iqtisadiyyata xarici investisiyalar cəlb etmək məqsədilə hökumət tərəfindən «açıq qapı» siyasəti həyata keçirilir.

İndiyədək ölkəmizdə xarici şirkətlərə bir sıra güzəştlər edilib. Biznes qeydiyyatı sistemi sadələşdirilib, investisiyalarla bağlı mexanizmlər təkmilləşdirilib, vergi yükü azaldılıb, investorların hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılıb və əlverişli biznes mühiti formalaşdırılıb. Bütün bunlar xarici şirkətlərin Azərbaycanda sərmayə qoymasına münbit zəmin yaradıb. 2004-2016-cı illər ərzində ölkəmizdə 7 mindən artıq xarici investisiyalı şirkət qeydiyyatdan keçib. Ticarət, xidmət, tikinti, sənaye, nəqliyyat, bank və sığorta, rabitə, kənd təsərrüfatı və digər sahələrə investisiya yatıran xarici şirkətlərin əksəriyyəti dünyanın inkişaf etmiş 20 ölkəsinə aiddir. Onların sırasında Böyük Britaniya, ABŞ, Yaponiya, Rusiya Federasiyası, Almaniya, Cənubi Koreya, Türkiyə əsas yer tutur.

Miqrasiya qanunvericiliyinə edilən son dəyişikliklər də əcnəbi iş adamlarının yeni investisiya layihələri həyata keçirmələri üçün əlverişli imkanlar yaradır. Miqrasiya Məcəlləsində edilmiş dəyişikliklərə əsasən, ölkəmizdə yaradılan, təsisçisi və ya təsisçilərindən ən azı biri xarici hüquqi və ya fiziki şəxs olan firma və şirkətlərin rəhbərləri iş icazəsi tələb olunmayan şəxslər qrupuna aid edilib. Qeyd edək ki, əvvəllər qanunvericilikdə yalnız xarici hüquqi şəxsin Azərbaycandakı filial və nümayəndəliyinin rəhbərləri və onların müavinlərindən iş icazəsi tələb olunmurdu, bu güzəştlər isə kiçik və orta biznesə malik əcnəbilərə aid deyildi. Yeni qaydaların qüvvəyə minməsi xarici ölkə vətəndaşlarının iş icazəsi almadan Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olmasına şərait yaradır. Mütəxəssislər hesab edirlər ki, bu dəyişikliklər ölkədə xarici investisiyalı yerli şirkətlərin artımına səbəb olacaq.

S.Vəliyev bildirib ki, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) xarici investisiya qoyuluşunun dəstəklənməsi, yerli və əcnəbi sahibkarlara müxtəlif biznes xidmətlərinin göstərilməsi, iş adamlarının işgüzar əlaqələrinin genişləndirilməsi, ölkə iqtisadiyyatının qeyri-neft sahəsində müddətli investisiya qoyuluşlarının həyata keçirilməsi, yerli və xarici investisiyaların qeyri-neft sektoruna cəlb edilməsi ilə bağlı əcnəbi şirkətlərlə işgüzar görüşləri artırıb. Yaxın vaxtlarda xarici biznesin fəaliyyətini daha da stimullaşdırmaq üçün Rəqabət Məcəlləsinin qəbul olunması da planlaşdırılır. Nəzərdə tutulan islahatlar həm daxili, həm də xarici mənbələr hesabına ölkəmizə ciddi investisiya axınlarının cəlb edilməsinə şərait yaradacaq.

Həyata keçirilən səmərəli vergi siyasəti də xarici sərmayələrin axınına hərtərəfli şərait yaradıb. Azərbaycan hökuməti ilə bir sıra dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı 51, investisiyaların təşviqi və qarşılıqlı qorunması ilə bağlı 48 ölkə ilə sazişlər imzalanıb. Respublikamızın bu sahə üzrə bir sıra beynəlxalq müqavilələrə qoşulması investisiyaların təşviqinə və xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırıb.

Son illərdə hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi ölkənin biznes mühitinə müsbət təsir göstərib. Fiziki və hüquqi şəxslərin vergi uçotunun Vergilər Nazirliyi tərəfindən elektron qaydada aparılması vətəndaşların sahibkarlıq fəaliyyətinə başlamasını xeyli asanlaşdırıb. Qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən, hüquqi şəxslərin elektron dövlət qeydiyyatı rüsumsuz həyata keçirilir. Yeni müəssisə yaratmaq istəyən sahibkarlar qeydiyyat prosesinə cəmi bir neçə dəqiqə vaxt sərf edirlər. Bu amillər qeyri-neft sektorunda fəaliyyətə xarici investisiyaya malik şirkətlərin sənaye, tikinti, nəqliyyat, turizm və xidmət sahələrinə marağının artması üçün stimullaşdırıcı təsirə malikdir.




**Elbrus CƏFƏRLİ**

# Transfer qiymətlərinin tənzimlənməsi sahəsində qanunvericilik bazası yaradılır



Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası əsasında Vergilər Nazirliyi tərəfindən hazırlanmış «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün «Strateji Plan»da transfer qiymətlərinin tənzimlənməsi sahəsində qanunvericilik bazasının və inzibati nəzarət mexanizmlərinin yaradılması» nəzərdə tutulmuşdur. Bu məqsədlə Vergilər Nazirliyi tərəfindən Avropa İttifaqının texniki yardımı ilə Avropa Komissiyasının Tvinninq yardım aləti çərçivəsində layihənin həyata keçirilməsi təklif edilmiş və təklif Avropa Komissiyası tərəfindən müsbət qarşılanmışdır. Tvinninq layihəsinin icrasına başlamaq məqsədilə yerli mütəxəssislərlə birgə «layihə fişi»nin hazırlanması üçün Avstriya Maliyyə Nazirliyinin İri vergi ödəyiciləri idarəsinin transfer qiymətləri və beynəlxalq vergitutma məsələləri üzrə auditoru Horst Rinnhofer ölkəmizdə səfər etmişdir. H.Rinnhoferin «Vergilər» qəzetinə müsahibəsini təqdim edirik.

***- Cənab Rinnhofer, layihənin uğurlu olması üçün, əsasən, hansı aspektlərə diqqət yetiriləcəkdir?***

- Biz «Tvinninq fişi»ndə layihənin uğurlu olması üçün həm qanunvericilik, həm də inzibatçılıq sahələrinin əhatə olunacağını qeyd etmişik. Növbəti vacib məqamlardan biri Avropa İttifaqının üzvü olan dövlətlərin təcrübəsində transfer qiymətləri ilə bağlı ən yaxşı təcrübələrdən istifadə edilməsidir. Eyni vaxtda bu sahədə çalışan peşəkar işçilərin yetişdirilməsi vacibdir. Tvinninq layihəsi çərçivəsində işçi qrupun yaradılması və həmin qrup üzvlərinin müxtəlif bilik və bacarıqlara yiyələnməsi üçün kursların təşkil edilməsi nəzərdə tutulub. Bilik və bacarıqlara yiyələnən şəxslərlə yerlərdə birbaşa bu sahənin auditini, təftişini aparanların yaxın əlaqədə çalışması vacibdir ki, onlar əldə olunan müxtəlif bilikləri mübadilə edə bilsinlər. Tvinninq elə bir prosesdir ki, burada hər iki tərəf dəyişikliyə hazır olmalıdır. Tərəfdaş ölkə seçiləcək və yeni nəticələr əldə olunacaqdır. Buna açıq olmaq və müxtəlif təcrübələrdən bəhrələnmək lazımdır.

***- Transfer qiymətlərinin təhlili və müəyyənləşdirilməsi sahəsində əsas hansı məqamlar nəzərə alınmalıdır?***

- İlk növbədə, icra olunmuş funksiyaların yaratdığı dəyər əsas götürülməlidir. Hansı funksiyaların daha çox dəyər yaratması və hansı aktivlərin bu dəyərlərin yaradılmasına cəlb olunması araşdırılır. Bu mövzularda, adətən, nəzərə alınan iki məqam var. Birincisi, dəyər yaratma məfhumu, digəri isə risklərin təhlilidir. Əlbəttə, transfer qiymətlərinə nəzarət məsələlərində nəzərə alınan vacib məqam müqavilə şərtlərinə hansı dərəcədə riayət olunub-olunmamasıdır. Müqavilədə nəzərdə tutulmuş həmin əqdlərin əməliyyatları idarə edən tərəflərə münasibətdə tənzimlənməsi ən vacib amil hesab olunur.

Fikrimcə, məsələyə standart metoddan çox, mənfəətin bölüşdürülməsi nöqteyi-nəzərindən yanaşmağımız daha düzgün olacaqdır. Mənfəətin bölüşdürülməsi amilindən vergilərin müəyyən olunmasında yaranmış dəyər vacib sayılmalıdır. Ümumilikdə, transfer qiymətlərinin təhlilinin müəyyənləşdirilməsi sahəsində ən əhəmiyyət kəsb edən məsələ qarşılıqlı asılı tərəflər arasında dəyər yaradılmasıdır. İki tərəf hansısa ticarət əlaqələrində olursa, həmin tərəflərin dəyər qatması mövzusu transferin əmələ gəlməsində ən vacib amildir.

***- Dünyada mövcud olan transfer qiymət sistemlərinin əksəriyyəti İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) standartlarına və qaydalarına əsaslansa da, bu prinsiplərdən kənarlaşmalar da mövcuddur. Avstriya bu sahədə hansı ölkələrin vergi orqanları ilə əməkdaşlıq edir? Bu istiqamətdə vergi məlumatlarının mübadiləsinə imkan verən hansı beynəlxalq müqavilələr imzalanıb?***

> “ Transfer qiymətlərinin təhlilinin müəyyənləşdirilməsi sahəsində ən əhəmiyyət kəsb edən məsələ qarşılıqlı asılı tərəflər arasında dəyər yaradılmasıdır

- Avstriya OECD-yə üzv ölkə olmaqla yanaşı, Avropa Şurasının da üzvüdür. Buna görə də bizdə bu təşkilatların tələb etdiyi minimumlar səviyyəsində «transfer pricing» - transfer qiymətləndirmə qaydaları tətbiq edilir. Bizim xüsusi olaraq hansısa əlavə vergilərimiz, bu istiqamətdə əlavə cəlb etdiyimiz məqamlar yoxdur. Digər üzv ölkələrdə olduğu kimi, biz də vergi inzibatçılığını qanunamüvafiq qaydada həyata keçiririk.

Biz həm də IOTA ilə əməkdaşlıq edir, bəzən birlikdə təcrübə mübadiləsi aparırıq. OECD-nin Birləşmiş Vergi Administrasiyaları Təşkilatına (JİTSİC) da üzv olduğumuzdan, bu platformada da digər ölkələrlə iş birliyi qura bilirik. JİTSİC vergidən yayınma sahəsində mübarizə üzrə dünyanın 36 ölkəsini birləşdirən təşkilatdır və Avstriya bu şəbəkəyə daxil olaraq həmin ölkələrlə əməkdaşlıq edir.

***- Tvinninq «layihə fişi»nin hazırlanması məqsədilə yerli mütəxəssislərlə birgə işçi seminarlar keçirəcəksiniz. Sizcə, nəzərdə tutulan tvinninq layihəsi çərçivəsində gözləntilərimiz nə olmalıdır, Azərbaycanın vergi sistemi bundan nə qazana biləcək?***

- Əvvəla, müəyyən qrup vergi əməkdaşı vergi auditinin beynəlxalq standartlara uyğun aparılmasını, auditdə transfer qiymət əmələgəlməsinə nəzarət edilməsini öyrənəcək. Beynəlxalq vergitutma məsələlərində şəffaflığa, qanunamüvafiqliyə nail olunmasına zəmin yaranacaq. Bu isə ölkəyə xarici investisiyaların cəlb olunması baxımından əlverişlidir: beynəlxalq vergitutma üzrə şəffaf, düzgün, dürüst sistemi gördükdə, xarici investorun ölkənizə marağı artacaqdır.

***- Azərbaycana neçənci gəlişinizdir?***

- Ölkənizdə ilk dəfə oluram. Çox gözəl, müasir, qonaqlara açıq bir şəhəriniz var. Burada olduğumdan məmnunam. Mən insanların dinindən, irqindən asılı olmayaraq, təhsilin, dayanmadan öyrənmənin inkişafa gedən yol olduğuna inanıram. Hamıya da bu yolla irəliləməyi arzu edirəm...

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

## Texnologiyaya həsr olunmuş beynəlxalq tədbir

Amerikanın Florida ştatının Mayami şəhərində Amerikadaxili Vergi Administrasiyaları Mərkəzinin (CIAT) təşkilatçılığı ilə texnologiyaya həsr edilmiş yığıncaqda 40 ölkənin vergi administrasiyalarının, vergitutma sahəsində proqram təminatları hazırlayan şirkətlərin və beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər. Tədbir texniki sessiyalar formatında - təqdimatlar və ekspert müzakirələri, eləcə də müxtəlif şirkətlərin məhsullarının sərgisini əhatə etmişdir.

Toplantıda «Yeni vergi inzibatçılığına hazırsınızmı?», «İnteqrasiya edilmiş vergidə yeni cərəyanlar», «İzləmə texnologiyası: ƏDV və aksiz vergisinə nəzarətin gücləndirilməsi», «3-cü nəsil kassa aparatları və vergilərin yığılması», «Vergi əməletməsinin yaxşılaşdırılması üçün məlumatların və texnologiyanın təhlil, strategiya, planlaşdırma, təhsil və daha təkmil icra mexanizmləri ilə birləşdirilməsi» mövzularında təqdimatlar dinlənilmiş, «İnkişaf etməkdə olan ölkələrdə vergi sistemində informasiya və kommunikasiya texnologiyalarından istifadəyə dair» araşdırma mövzusunda paralel sessiya təşkil edilmişdir.

Tədbirdə ölkəmizi Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Beynəlxalq əməkdaşlıq idarəsinin Beynəlxalq əlaqələr şöbəsinin rəisi Fərid Hacıyev və Maliyyə institutlarında vergi monitorinqi idarəsinin Maliyyə institutlarında vergi əməletməsinə nəzarət şöbəsinin rəisi Səfərəli Cavadov təmsil etmişlər.

## Daşınmaz əmlakın satışı ilə bağlı yeni qaydalar

Nazirlər Kabinetinin mənzil və qeyri-yaşayış sahələrinin satışı ilə bağlı təsdiq etdiyi yeni qaydalara əsasən, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim olunması üzrə müqavilənin (alğı-satqı, bağışlama, dəyişdirmə, renta və s.) notariat qaydasında təsdiqi zamanı notarius Vergi Məcəlləsinə uyğun olaraq sadələşdirilmiş vergini hesablayır və bir bank günü ərzində dövlət büdcəsinə ödəyir. Müvafiq bəyannamə isə vergi orqanına hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə təqdim edilməlidir.

Fiziki şəxsin özgəninkiləşdirilən yaşayış yeri üzrə qeydiyyatda olması müddəti «Elektron notariat» və «Giriş-çıxış» avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə əldə olunmuş məlumat əsasında mülkiyyət hüququnun əldə edilməsi müddətindən asılı olmayaraq müəyyən ediləcək. Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsinə görə hesablanmış sadələşdirilmiş verginin depozit hesabından dövlət büdcəsinə mədaxil edilməsi üçün notarius təqdim edən şəxsə ödəniş tapşırığı verəcək. Satıcı həmin vəsaitin dövlət büdcəsinə ödənilməsi barədə bank qəbzini notariusa təqdim etdikdən sonra təsdiq edilmiş müqavilə tərəflərə veriləcək. Həmin qəbzin əsli notariat işində saxlanılacaq, surəti isə satıcıya qaytarılacaq. Müqavilə üzrə pul məbləği Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş aşağı həddən az olduğu hallarda, habelə bağışlama, dəyişdirmə, renta (daşınmaz əmlak bağışlandıqda) müqavilələri üzrə yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı müqavilələrin rəsmiləşdirilməsi zamanı hesablanmış sadələşdirilmiş verginin depozit hesabına mədaxil olunması üçün notarius təqdim edən şəxsə banka ünvanlanmış məktub verəcək və hesablanmış sadələşdirilmiş verginin depozit hesabına mədaxil edilməsi üçün notarius təqdim edən şəxsə banka ünvanlanmış məktub verəcək. Nəticədə hesablanmış sadələşdirilmiş vergi notariusun təqdim edən şəxsə verdiyi ödəniş tapşırığı əsasında depozit hesabı vasitəsilə dövlət büdcəsinə ödəniləcək.

Müqavilənin rəsmiləşdirilməsi vaxtı bankın qeyri-iş gününə təsadüf etdikdə, notarius hesablanmış sadələşdirilmiş vergini növbəti bank günündən gec olmayaraq dövlət büdcəsinə ödənilməsi üçün nağd şəkildə tutmaqla, sadələşdirilmiş verginin tutulmasını təsdiq edən sənədi (qəbzi) təqdim edən şəxsə, müqaviləni isə hər iki tərəfə verəcək. Hər ay başa çatdıqda, növbəti ayın birinci iş günü təsdiq edilmiş müqavilələr üzrə dövlət büdcəsinə ödənilmiş vergi barədə bank hesabından çıxarışla üzləşmə aparılacaq və rübdən sonra ayın 5-dək Ədliyyə Nazirliyinə məlumat veriləcək.

Nazirlər Kabinetinin təsdiq etdiyi «Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat»dakı digər bir dəyişikliyə əsasən, bundan sonra kommersiya hüquqi şəxsi ilə bağlı notariat hərəkətləri aparılarkən, notarius kommersiya hüquqi şəxslərinin dövlət reyestrinə daxil olmuş məlumatları, o cümlədən təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə informasiyanı müvafiq informasiya texnologiyaları sistemi vasitəsilə elektron sorğu əsasında gün ərzində əldə edəcək və bu barədə çap olunmuş arayışı müvafiq notariat hərəkəti üzrə notariusda saxlanılan işin nüsxəsinə əlavə edəcək.




**RƏŞAD**

## «Tax free» fakturalarının sayı üç minə yaxındır

«Tax free» sistemi xarici turist tərəfindən alınmış mala görə ödənilən əlavə dəyər vergisinin ölkəni tərk edərkən həmin turistə geri qaytarılmasını nəzərdə tutur. Beynəlxalq təcrübədə geniş istifadə edilən bu sistemin tətbiqi ölkəyə xarici turistlərin marağının artırılması, turizmin inkişafında davamlılığın təmin edilməsi və rəqabət qabiliyyətinin möhkəmləndirilməsi məqsədi daşıyır. Əlavə dəyər vergisi (ƏDV) tətbiq edən 130 ölkənin 52-də «Tax free» sistemi mövcuddur. Bu ilin iyul ayından ölkəmizdə də «Tax free» sisteminin tətbiqinə başlanılıb. Azərbaycan üçün yeni olan bu sistem ilkin olaraq Heydər Əliyev adına Beynəlxalq Hava Limanında, Gəncə, Naxçıvan, Lənkəran, Qəbələ hava limanlarında tətbiq edilməyə başlanıb. Gələcəkdə respublikanın digər sərhəd-buraxılış məntəqələrində də «Tax free» sisteminin tətbiqi nəzərdə tutulub. «Tax free» sistemi üzrə operator səlahiyyətlərini Vergilər Nazirliyi həyata keçirir, müvəkkil bank isə «Bank Silk Vey» ASC-dir.




Bu sistemdən faydalanmaq üçün alınan mal kommersiya və istehsal xarakterli deyil, şəxsi istehlak məqsədli olmalıdır. Xarici turistlər aldıqları malı 90 gün ərzində ölkədən aparmalıdırlar. «Tax free» bir elektron vergi-hesab üzrə malların dəyəri ƏDV ilə birlikdə 300 manatdan çox olduğu hallarda tətbiq edilə bilər. Hazırda ölkəmizdə təqdim edilən bütün mallara görə ƏDV-nin dərəcəsi 18 faizdir. «Tax free» stikerləri olan mağazalarda istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulan mallar istisna olmaqla, alınan digər mallara görə ödənilən ƏDV-nin məbləği xarici vətəndaşlar ölkəni tərk edən zaman onlara geri qaytarılır. Qaytarılacaq ƏDV məbləği müvəkkil bank tərəfindən operatorun göstərdiyi xidmətlərə görə alıcıya ödəniləcək ƏDV məbləğindən 20 faiz həcmində xidmət haqqı və bank əməliyyatlarının aparılmasına görə xidmət haqları çıxılmaqla alıcıya ödənilir.

ƏDV-nin qaytarılması şərti ilə malların satışını həyata keçirmək üçün satıcı ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməli, pərakəndə ticarət fəaliyyəti ilə məşğul olmalı, təsərrüfat subyektində vergi qanunvericiliyinə uyğun olaraq quraşdırılmış nəzarət-kassa aparatına və işlək vəziyyətdə olan POS-terminala malik olmalı, Vergi Məcəlləsi ilə müəyyən edilmiş vergilərlə bağlı dövlət büdcəsinə borcu və digər öhdəliyi olmamalıdır. Hazırda 204 mağaza bu sistemə qoşulub. «Tax free» sistemi tətbiq edilən gündən oktyabrın 31-dək 59 ölkənin vətəndaşlarına 2962 faktura verilmişdir. ƏDV ilə birgə məbləğ 4 850,8 min manat təşkil etmiş, qaytarılmalı olan 493,3 min manatdan 492,6 min manatı gömrük orqanları tərəfindən təsdiqlənmiş və 59 ölkənin vətəndaşlarına 492,6 min manat ƏDV geri qaytarılmışdır.

«Tax free» sisteminin tətbiqindən bəri Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsi tərəfindən bu sistemin tətbiqi ilə əlaqədar ölkəyə gələn xarici vətəndaşlar üçün bələdçi buklet, satıcılar üçün «Malların satışının rəsmiləşdirilməsi proseduru» barədə yaddaş kitabçası hazırlanmışdır. Buklet ingilis və rus dillərinə tərcümə olunmuş, xarici vətəndaşlara təqdim edilməsi üçün hava limanlarında yaradılmış guşələrdə yerləşdirilmişdir. «Tax free» sisteminə qoşulmuş 31 vergi ödəyicisinə məxsus 204 obyekt üzrə satıcılara «ASAN İmza» sertifikatları verilmiş, həmin obyektlərin nümayəndələri üçün təlimlər təşkil edilmişdir.

«Tax Free» sisteminin tətbiqi ilə bağlı bütün zəruri məlumatları özündə əks etdirən və domen adı «www.taxfree.az» olan internet saytı yaradılmışdır. Burada «Tax free» sisteminə qoşulmaq istəyən vergi ödəyicilərinə tələblər, «Tax free» sisteminə qoşulmaq üçün qeydiyyat və qeydiyyata alınmış təsərrüfat subyektlərində malların satışının rəsmiləşdirilməsi prosedurları, «Tax free» sisteminə qoşulmuş təsərrüfat subyektləri, «Tax free» sisteminə aid olmayan mallar barədə məlumatlar 3 dildə yerləşdirilmişdir. Bundan başqa, ölkə ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisindən qaytarılacaq məbləğin hesablanması üçün «Tax free kalkulyatoru» hazırlanaraq saytda yerləşdirilmişdir.

Qeyd edək ki, «Tax free» sistemindən ölkə vətəndaşları, Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə verilmiş, haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi verilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, bilavasitə xidməti vəzifələrini icra edən hava nəqliyyatının heyət üzvü olan şəxslər və 14 yaşınadək şəxslər yararlana bilməzlər. ƏDV-nin qaytarılması aksizli mallara, ərzaq məhsullarına, dərman preparatlarına və tibbi ləvazimatlara, ölkənin mədəni-tarixi sərvəti hesab edilən, mədəni irsin qorunması üçün mühüm əhəmiyyət kəsb edən mallara, ölkə daxilində satışı ƏDV-dən azad edilən mallara, ixracı üçün lisenziya tələb olunan mallara, çərçivəyə salınmamış, emal edilməmiş və ya çeşidlənməmiş qiymətli daşlara, külçə şəklində qiymətli metallara, müşayiət olunmayan baqajla Azərbaycan Respublikasının ərazisindən aparılan mallara, nəqliyyat vasitələri və onların ehtiyat hissələrinə, poçt və ya internet xidməti vasitəsilə ixrac edilən mallara şamil olunmur.

**Aytən NƏBİYEVA**

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Ödənilmiş ƏDV-nin əvəzləşdirilməsi

***Rezident müəssisə tərəfindən Türkiyə Respublikasında yerləşən qeyri-rezidentlə bağlanmış müqavilə əsasında proqram təminatı alınmışdır. Bu zaman qeyri-rezidentə ödənilmiş məbləğə ƏDV hesablanmış və büdcəyə ödənilmişdir. Müəssisə ƏDV qeydiyyatında olmadığı üçün ödənilmiş ƏDV-ni əvəzləşdirə bilməmişdir. Bu zaman müəssisə həmin ƏDV məbləğini xərcinə daxil edə bilərmi?***

Vergi Məcəlləsinin (VM) 108-ci maddəsinə görə, VM-in X fəslinə uyğun olaraq, gəlirdən çıxılmayan xərclərdən başqa, gəlirin əldə edilməsi ilə bağlı bütün xərclər, həmçinin qanunla nəzərdə tutulmuş icbari ödənişlər gəlirdən çıxılır.

ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində Vergi Məcəlləsinin 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə, Vergi Məcəlləsinin XI fəslinin məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi VM-in 169-cu maddəsinə uyğun olaraq vergiyə cəlb edilir (VM, maddə 169.1).

Vergi agenti ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməmişdirsə, o, hesablanmış vergini bu maddəyə uyğun olaraq qeyri-rezidentə ödəmə verildikdən sonra 7 gün ərzində ödəməyə və növbəti ayın 20-dək Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada ƏDV bəyannaməsi təqdim etməyə borcludur. Vergi Məcəlləsinə uyğun olaraq, vergi agentinin qeyri-rezidentə ödənilməli olan məbləğ ƏDV-nin hesablanması üzrə əməliyyatları vergi agentinin ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmasına görə müəyyənləşdirilmiş vergi tutulan əməliyyatlarına aid edilmir. Vergi agenti qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV-ni hesablayaraq büdcəyə ödədikdə, ödəniş sənədlərində vergini qeyri-rezidentə ödədiyi məbləğdən hesabladığı barədə müvafiq qeyd aparmalıdır (VM, maddə 169.5).

**Qeyd olunanlara əsasən:**

ƏDV qeydiyyatında olmayan rezident müəssisə tərəfindən qeyri-rezidentdən alınmış proqram təminatına görə ödənilmiş ƏDV məbləğləri həmin proqram təminatının dəyərinə aid edilməklə mənfəət vergisinin məqsədləri üçün müəssisənin gəlirdən çıxılan xərclərinə aid edilir.

# «Moody's» «ABB-Moskva»nın reytinqini yüksəldib

«Moody's» beynəlxalq reytinq agentliyi Azərbaycan Beynəlxalq Bankının törəmə bankı olan «Azərbaycan Beynəlxalq Bankı-Moskva»nın yerli və xarici valyutada uzunmüddətli depozit reytinqini «V3» səviyyəsindən «V2» səviyyəsinə artırıb. Bankın kredit qabiliyyətinin qiymətləndirilməsi (BCA) b3-dən b2 pilləsinə yüksəlib, uzunmüddətli risk qabiliyyəti isə B-1 səviyyəsində dəyərləndirilib. Bankın uzunmüddətli depozit reytinqi üzrə proqnoz stabil qiymətləndirilib.

Bu reytinq «Azərbaycan Beynəlxalq Bankı» ASC-nin sağlamlaşdırılması tədbirləri çərçivəsində Azərbaycan hökumətinin banka dəstəyindən sonra «ABB-Moskva»nın getdikcə güclənən mövqeyi ilə bağlı «Moody's»in rəyini əks etdirir. Bu ilin ikinci rübündə «ABB-Moskva»nın nizamnamə kapitalının 2 milyard rubla qədər artırıldığı, beləliklə, bankın kapitalının 70% genişləndiyi qeyd edilir. Agentliyin rəyinə əsasən, sentyabrın 1-nə «Bazel III» normativləri üzrə «ABB-Moskva»nın məcmu kapitalının adekvatlığı (N1.0) və 1-ci dərəcəli kapitalın nisbəti (N1.2) 22,4% və müvafiq olaraq 8,3% artıb ki, bu da Rusiya Federasiyası Mərkəzi Bankının tələblərindən yüksəkdir.

## kit r fli SMS xidm tind n istifad qaydalar

İkitərəfli SMS xidmətindən «Azercell», «Bakcell» və «Narmobile» mobil operatorlarının abonenti istifadə edə bilər.

Xidmətdən istifadə etmək üçün mobil telefonda *195* istifadəçi kodu*şifrə# yığılır və «YES» (məsələn: *195*00000541*121756#YES) düyməsi sıxılmaqla nömrə qeydiyyatdan keçirilməlidir.

Xidmətə abunə olmaq üçün qeydiyyatdan keçirilmiş mobil telefon nömrəsindən START yazıb 8195 nömrəsinə SMS göndərilməlidir. Bu zaman Sizə 21 halda müvafiq məzmunlu SMS göndəriləcək.

Nömrə qeydiyyatdan keçirildikdən sonra xidmətə abunə olmadan 8195 nömrəsinə:

1 yazıb göndərməklə - dövlət büdcəsinə olan vergi borcu barədə

2 yazıb göndərməklə - təqdim edilməli bəyannamələr barədə

3 yazıb göndərməklə - fəaliyyətin aktiv və ya dayandırılmış olması barədə

4 yazıb göndərməklə - e-qutuda oxunmamış məktubların olub-olmaması barədə

5 yazıb göndərməklə - qeydiyyatda olan təsərrüfat subyektləri barədə məlumat ala bilərsiniz

8195 nömrəsinə göndərilmiş hər sorğuya görə nömrənin balansından 10 qəpik xidmət haqqı tutulur. Abunə olmuş vergi ödəyicilərinin nömrəsinin balansından ayda 1 manat 18 qəpik abunə haqqı tutulur.

# Azərbaycan «Doing Business 2017» hesabatında «Biznesə başlama» indeksi üzrə dünyada 5-ci yerdə qərarlaşıb

Dünya Bankının « Doing Business 2017» hesabatında 190 ölkənin biznes mühiti qiymətləndirilib. Hesabata əsasən, Azərbaycan dünyada 3 və daha çox islahat aparan 29 ölkədən biridir. Hesabatda «Xarici ticarətin aparılması» göstəricisi üzrə beynəlxalq ticarət zamanı idxal və ixrac bəyannamələrinin elektron qaydada verilməsi sisteminin tətbiq edilməsi, «Vergilərin ödənilməsi» göstəricisi üzrə nəqliyyat vasitələrindən tutulan verginin sadələşdirilməsi və «Elektrik təchizatı şəbəkələrinə qoşulma» meyarı üzrə yeni istifadəçilərin qoşulma nöqtələrinin müəyyən edilməsi üçün sərf olunan vaxta qənaət edən məlumat bazasının yaradılması mühüm islahatlar kimi vurğulanıb.

Azərbaycan «Biznesə başlama» göstəricisi üzrə 5-ci (əvvəlki hesabatda 7-ci), «Kiçik investorların maraqlarının qorunması» göstəricisi üzrə 32-ci (əvvəlki hesabatda 36-cı), «Xarici ticarətin aparılması» göstəricisi üzrə 83-cü (əvvəlki hesabatda 94-cü) və «Elektrik təchizatı şəbəkələrinə qoşulma» göstəricisi üzrə 105-ci (əvvəlki hesabatda 110-cu) pilləyə yüksəlib. «Əmlakın qeydiyyatı» (22-ci yer), «Kiçik investorların maraqlarının qorunması» (32-ci yer), «Vergilərin ödənişi» (40-cı yer), «Müqavilələrin icrasının təmin edilməsi» (44-cü yer) indikatorları üzrə Azərbaycan öz mövqeyini yaxşılaşdıraraq 190 ölkə arasında ilk 50-likdə qərarlaşıb.

Hesabatdakı indekslərin ikisi birbaşa vergi məsələlərinə aiddir:

- «Biznesə başlama» (Starting business);
- «Vergilərin ödənilməsi» (Paying taxes).

«Biznesə başlama» reytinqi sahibkarın (sənaye və kommersiya) biznesə başlaması üçün təcrübədə tələb olunan inzibati prosedurların sayı, sərf olunan vaxt və xərclərin dəyəri, həmçinin ödənilmiş minimum kapitalın həcmini ifadə edir. Bu reytinqin müəyyən edilməsi məqsədləri üçün inzibati prosedur - lazımi lisenziya, icazə sənədlərinin müvafiq orqanlardan alınmasından ibarətdir və işıq, qaz, su və s. kommunal xidmətlər istisna olmaqla, xarici tərəflə münasibəti əks etdirir. Bu prosedur yekun sənədin alınması ilə tamamlanır.

Hesabatda göstərilir ki, «Biznesə başlama» göstəricisi üzrə Azərbaycanda kommersiya hüquqi şəxslərin qeydiyyatı üçün yerinə yetirilməli olan prosedurların sayı 2, sərf edilən müddət 3 gün, tələb olunan məbləğ isə 72 manatdır. Burada prosedurlar onlayn qeydiyyat üçün elektron imzanın alınması üzrə 1 gün, onlayn qeydiyyatdan keçmə üzrə isə (VÖEN və ƏDV qeydiyyatı daxil) 2 günə bərabərdir.

Vergilər Nazirliyi tərəfindən son illərdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində biznesə başlama prosedurları əsaslı şəkildə sadələşdirilib.

| «Biznesə başlama» indeksi | | | |
|---|---|---|---|
| | Azərbaycan | Avropa və Mərkəzi Asiya | OECD |
| Prosedur | 2.0 | 4.9 | 4.8 |
| Vaxt (gün) | 3.0 | 10.2 | 8.3 |
| Xərclər (adambaşına düşən gəlirin faizi) | 1.3 | 4.7 | 3.1 |
| Ödənilmiş minimum kapital (adambaşına düşən gəlirin faizi) | 0.0 | 4.0 | 9.2 |

2011-2013-cü illərdə elektron qeydiyyat üzrə aparılan islahatlar biznes qurmaq istəyən sahibkarların işini xeyli asanlaşdırıb. 2011-ci il iyulun 1-dən fərdi sahibkarların «e-qeydiyyat» sisteminə başlanılıb ki, bu da sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin vergi orqanına getmədən internet vasitəsilə uçota dayanmasına imkan verib.

2012-ci ilin fevral ayından isə Azərbaycan Respublikasında yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin də qeydiyyatı elektron üsulla aparılmaqdadır. Kommersiya hüquqi şəxslərin «e-qeydiyyat» sisteminin tətbiqi üçün ölkənin 4 qanunvericilik aktına dəyişikliklər edilib. Bu sistemin tətbiqi hüquqi şəxsləri dövlət qeydiyyatı ərəfəsində yerinə yetirilməli olan 3 məcburi prosedurdan keçmək zərurətini tamamilə aradan qaldırıb və qeydiyyatın aparılmasına sərf edilən müddət azaldılıb. Bundan əlavə, hüquqi şəxslərə «elektron imza»dan istifadə etməklə sənədlərini qeydiyyat orqanına təqdim etmək imkanı yaradılıb.

Hesabatın vergi orqanlarının işinə aid daha bir göstəricisi olan «Vergilərin ödənilməsi» reytinqi üzrə ölkəmiz ötənilki hesabatla müqayisədə bir pillə irəliləyərək, 40-cı pillədə qərarlaşıb və vergilərin ödənilməsinin asanlığına görə MDB məkanında ilk yerlərdən birini tutur.

Bu metodologiyaya əsasən, orta ölçülü şirkətin il ərzində ödəməli olduğu vergi və digər ödəmələr, həmçinin onların inzibatçılıq yükü müəyyən edilir. Vergi və ödəmələrə müxtəlif mənbələrdən olan mənfəət və gəlirlərə görə vergilər, o cümlədən əmlak icarəsindən vergilər, dividend və kapital vergiləri, maliyyə köçürmələrindən əldə edilən gəlirdən vergilər, işəgötürənin ödədiyi əmək vergiləri, sosial ayırmalar, əmlak, avtomobil və yol vergiləri və s. aid edilir.

Dövlət büdcəsinə vergilərin ödənilməsi və bəyannamələrin təqdim edilməsi sahəsində vergi sistemində tətbiq edilən yeniliklər əvvəlki illərin reytinq cədvəllərində öz əksini tapıb və «Vergilərin ödənilməsi» göstəricisinə görə ölkəmizin mövqeyi xeyli yaxşılaşıb. Hesabatda ölkədə sosial müdafiə ayırmaları üzrə hesabatların və ödənişlərin elektron formada aparılması və digər sahələrdə əldə edilmiş nailiyyətlər nəzərə alınıb. Artıq Azərbaycanda məcburi dövlət sosial sığorta haqlarının ödənişi və hesabat sisteminin avtomatlaşdırılması tam başa çatdırılıb ki, bunun da nəticəsində həmin hesabatların hazırlanmasına və ödənişlərin həyata keçirilməsinə sərf olunan vaxt 81 saat qiymətləndirilib. Ümumilikdə isə digər yığımlar - sosial müdafiə ayırmaları, mənfəət və əlavə dəyər vergisi üzrə sərf olunan vaxt 195 saat müəyyənləşdirilib. Ödənişlərin sayı 6, ümumi vergi dərəcəsi isə 39,8% qeyd olunub.

| «Vergilərin ödənilməsi» indeksi | | | |
|---|---|---|---|
| | Azərbaycan | Avropa və Mərkəzi Asiya | OECD |
| Ödənişlər (il ərzində sayı) | 6.0 | 17.6 | 10.9 |
| Ödənişlərə sərf olunan vaxt (illik saat) | 195 | 221.5 | 163.4 |
| Ümumi vergi dərəcəsi (faizlə) | 39.8 | 33.8 | 40.9 |
| Hesabata sərf olunan vaxt (0-100) | 81.0 | 71.2 | 58.1 |

Son illər ölkəmizin vergi sistemində həyata keçirilən islahatlar - ƏDV depozit hesabının tətbiqi, bəyannamələrin elektron formada təqdim edilməsi, vergilərin elektron formada ödənişi, fiziki və hüquqi şəxslərin qeydiyyatının real vaxt rejimində aparılması və digər yeniliklər yüksək reytinqin əldə olunmasında mühüm rol oynayıb. Elektron vergi bəyannamələrinin tətbiqinin genişlənməsi və vergi ödənişləri infrastrukturunun inkişafı, vergitutma sahəsində xərc tələb edən prosedurlar, vergi qanunvericiliyinin tələblərinə riayət edilməsinə sərf olunan vaxt və vergi ödənişlərinin sayının azaldılması bu sahədə kompleks islahatlar aparıldığını təsdiqləyir. Hazırda Azərbaycan özünün vergi sistemini əhəmiyyətli dərəcədə təkmilləşdirərək kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli vergi mühitinin, eləcə də xarici investisiyaların cəlb olunması məqsədilə rəqabətədavamlı vergi rejiminin yaradılması istiqamətində islahatları davam etdirir. Bütün bu amillər vergi məsələləri üzrə indekslərin daha da yaxşılaşmasına səbəb olacaq.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov bildirib ki, hesabatda Azərbaycanın 3 indikator üzrə mövqeyini ötən illə müqayisədə daha da yaxşılaşdırmasına bir sıra mühüm amillər, o cümlədən 2016-cı ildə aparılan islahatlar öz təsirini göstərib: «Bu, müəyyən edilmiş yeni iqtisadi islahatlar kursuna uyğun olaraq biznes sektorunda sənədləşmə işlərinin sadələşdirilməsi və şəffaflığın təmin olunması, sahibkarların mənafeyinə xidmət edən yeni qaydaların qüvvəyə minməsi, xarici ticarətlə bağlı prosedurların asanlaşdırılması, idxal-ixrac əməliyyatlarının təkmilləşdirilməsi, vergi sistemində kiçik və orta sahibkarlığın inkişafını stimullaşdıran mühüm addımların atılması, vergi ödəyicilərinin hüquqlarının qorunması, xidmət səviyyəsinin yaxşılaşdırılması və həyata keçirilən digər tədbirlərin nəticəsi hesab oluna bilər».

**Elbrus CƏFƏRLİ**

# Ticarət əməliyyatları rəsmi şəkildə qeydə alınmalıdır

Malların, xidmətlərin təqdim edilməsi zamanı tərəflər arasında aparılan bütün əməliyyatların rəsmi olaraq qeydə alınması «kölgə iqtisadiyyatı»nın qarşısının alınmasına, vergilərin tam həcmdə dövlət büdcəsinə yığılmasına və nəticə etibarilə iqtisadiyyatın inkişafına, əhalinin rifah halının yaxşılaşmasına şərait yaradır.

Nağd ödənilmiş pulun əvəzində çekin, qəbzin təqdim olunması vacibdir və bunun zəruriliyini hər birimiz gündəlik həyatımızda hiss edirik. Hər gün təkrarlanan bu proseslərin adiliyinə baxmayaraq, nağd hesablaşmaların rəsmiləşdirilməsi qaydaları və formalarından, istifadə edilən nəzarət-kasssa aparatı (NKA) çeki ilə yanaşı, ciddi hesabat blankı sayılan qəbz, onun harada tətbiq olunması və nə zaman tələb etməli olmağımız barədə də məlumatlı olmalıyıq.

Qəbz - NKA tətbiq edilməli olmayan fəaliyyət növləri ilə məşğul olan vergi ödəyicilərinin nağd pul hesablaşmalarının aparılmasında istifadə etdiyi, maliyyə-təsərrüfat fəaliyyətində əmtəə-pul dövriyyəsini özündə əks etdirən, forma və rekvizitləri Maliyyə Nazirliyi tərəfindən təsdiq olunan xüsusi seriya və nömrəli ilkin uçot sənədidir. Bir çox obyektlərdə NKA-dan istifadə olunmadığının, çek əvəzinə qəbz təqdim edildiyinin şahidi oluruq. Belə obyektlərdə nağd pul hesablaşmalarının aparılması ilə bağlı əməliyyatların qəbzlər vasitəsilə rəsmiləşdirilməsinə qanun çərçivəsində icazə verilir. Yəni nağd pul hesablaşmaları zamanı NKA-nın tətbiq edilib-edilməməsi vergi ödəyicisinin həyata keçirdiyi fəaliyyət növündən asılıdır. Vergi Məcəlləsinin 16.1.8-ci maddəsində göstərilən fəaliyyət növləri (məsələn, mehmanxana, hüquq, reklam, səhiyyə xidmətləri və s.), habelə işçilərinin sayı iki nəfərdən çox olmamaqla bərbərlik, foto xidmətləri, ayaqqabı təmiri və bu kimi digər fəaliyyət növləri ilə məşğul olan vergi ödəyiciləri tərəfindən nağd pul hesablaşmaları zamanı NKA-nın tətbiq olunması məcburi xarakter daşımır. Bu fəaliyyət növləri ilə məşğul olan vergi ödəyiciləri nağd pul hesablaşmalarını qəbzlər vasitəsilə həyata keçirə bilərlər. Həmçinin, qəbz tətbiq edilən fəaliyyət növləri ilə məşğul olan vergi ödəyicisi könüllü olaraq nağd hesablaşmaları NKA vasitəsilə də apara bilər.

> “ Nağd pul hesablaşmaları zamanı NKA-nın tətbiq edilib-edilməməsi vergi ödəyicisinin həyata keçirdiyi fəaliyyət növündən asılıdır

Qəbzlərdə aşağıdakı zəruri rekvizitlər əks etdirilməlidir:

- qəbzlərin sifarişçisi olan fiziki şəxsin adı, soyadı, atasının adı və VÖEN-i, hüquqi şəxsin isə adı və VÖEN-i;
- qəbzi çap edən şəxsin adı və VÖEN-i, bu blankları təkrar çapdan müdafiə etmək məqsədilə gizli nişanları (xüsusi emblemi, toru, qoloqramı, su nişanları, xüsusi gizli nişanlardan istifadə etməklə blankların müxtəlif yerlərində şəxsin adı və VÖEN-i);
- qəbzin adı, seriya və nömrəsi;
- təsərrüfat əməliyyatlarının məzmununu və ölçülərini əks etdirən məlumat qrafaları.

Bu məlumatlar və rekvizitlər qəbzlərdə göstərilmədiyi halda, etibarsız sayılır. Bundan əlavə, nağd pul hesablaşmalarının aparılması qaydalarına əməl etmək və qəbzləri istehlakçıya, müştəriyə təqdim etmək də vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir və bu vəzifələrin lazımınca yerinə yetirilməməsi qanunvericiliyə əsasən məsuliyyətə səbəb olur.

**Rəşad SADIQOV**

# Elektron xidmətlər üzrə inzibati reqlamentlər təkmilləşdirilib

«2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli sərəncamı ilə verilmiş tapşırıqların icrası məqsədilə Vergilər Nazirliyinin Kollegiyası tərəfindən vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə bir sıra normativ hüquqi aktlarla yanaşı, fiziki və hüquqi şəxslərin fəaliyyətinin onlayn dayandırılması və onlayn bərpası elektron xidmətləri üzrə inzibati reqlamentlər yeni redaksiyada təsdiq edilib.

**Hüquqi şəxsin fəaliyyətinin onlayn dayandırılması**

Bu xidmət hüquqi şəxslərin fəaliyyətinin Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı və ya Vergilər Nazirliyinin Çağrı Mərkəzi vasitəsilə müvəqqəti dayandırılmasını əhatə edir. İnternet Vergi İdarəsi Portalı vasitəsilə göstərilən xidmət tam, Çağrı Mərkəzi vasitəsilə göstərilən xidmət isə qismən avtomatlaşdırılmışdır. Xidmət interaktiv və ödənişsiz həyata keçir.

***İnternet Vergi İdarəsi Portalı vasitəsilə göstərilən xidmət***

Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsilə göstərildikdə icra müddəti sorğunun informasiya sistemi tərəfindən emalına sərf olunan vaxtdan asılı olur. Bu zaman hüquqi şəxsin fəaliyyəti müvəqqəti dayandırılaraq bu barədə onun elektron ünvanına onlayn qaydada bildiriş göndərilir və burada fəaliyyətin hansı tarixdən hansı tarixədək dayandırıldığı göstərilir.

Bu xidmətdən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada VÖEN almış və «Elektron sənəd mübadiləsi haqqında müqavilə» əsasında istifadəçi kodu, parol və şifrə və ya gücləndirilmiş elektron imza əldə etmiş hüquqi şəxslər istifadə edə bilərlər. Xidmətdən istifadə etmək üçün istifadəçinin səlahiyyətli nümayəndəsi Vergilər Nazirliyi tərəfindən verilmiş istifadəçi kodu, parol və şifrə və ya gücləndirilmiş elektron imza vasitəsilə İnternet Vergi İdarəsi Portalının «Onlayn kargüzarlıq və E-VHF» bölməsinə daxil olmalıdır. Daha sonra «Yeni müraciət» düyməsi sıxılaraq, «Kimə» siyahısından «Vergilər Nazirliyi», «Müraciətin növü» siyahısından «Ərizə», «Sənədin növü» siyahısından «Hüquqi şəxsin fəaliyyətinin dayandırılması» və «Qəbul» düyməsi seçilir. Açılan ekrana ərizə üzrə tələb olunan məlumatlar daxil edilir və məlumatların yoxlanılması üçün təsdiqlənmə ekranı gəlir. Məlumatların doğruluğuna əmin olduqda «Qəbul» düyməsi, əks halda «İmtina» düyməsi sıxılır. Ərizənin doğruluğu təsdiqləndikdən sonra ekrana fəaliyyətin dayandırılması haqqında «Bildiriş» çıxır. Bununla yanaşı, «Onlayn kargüzarlıq və E-VHF» bölməsinin «Göndərdiklərim» qovluğundan ərizə və bildiriş, habelə əməliyyat tarixçəsi ilə tanış olmaq mümkündür.

Fəaliyyətin dayandırılması barədə daha əvvəl təqdim edilmiş ərizə üzrə məlumatlar Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə (AVİS) daxil edilərək, yenidən hüquqi şəxsin fəaliyyətinin dayandırılması ərizəsi göndərildikdə, fəaliyyəti dayandırılmış hüquqi şəxs tərəfindən həmin dövr daxil olmaqla fəaliyyətin dayandırılması barədə yeni ərizə təqdim edildikdə xidmətin göstərilməsindən imtina edilir.

***Çağrı Mərkəzi vasitəsilə göstərilən xidmətlər***

Elektron xidmət Çağrı Mərkəzi vasitəsilə göstərildikdə icra müddəti tələb olunan məlumatların təqdim olunmasından, icraçının həmin məlumatları sistemə daxil etməsindən, əməliyyatları gücləndirilmiş elektron imza ilə təsdiqlənməsindən və əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılı olaraq, 5-7 dəqiqədir. Xidmətdən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisinin eyniləşdirmə nömrəsini almış və «Elektron imza və elektron sənəd haqqında» Qanunun müddəalarına əsasən, ASXM tərəfindən verilmiş gücləndirilmiş elektron imza almış hüquqi şəxslər istifadə edə bilərlər.

Xidmətdən istifadə etmək üçün istifadəçinin səlahiyyətli nümayəndəsi Çağrı Mərkəzinə (195-1) zəng edərək, mobil telefon nömrəsini təqdim edir. Səlahiyyətli nümayəndə onun kimliyinin müəyyənləşdirilməsi məqsədilə mobil telefon nömrəsinə gəlmiş SMS-lə tanış olduqdan sonra gücləndirilmiş elektron imza PIN2 kodunu daxil edir. Təqdim edilən məlumatlar əsasında hüquqi şəxsin fəaliyyətinin dayandırılması ərizəsi doldurulur. İstifadəçinin mobil telefon nömrəsinə ərizədə qeyd olunan məlumatlar barədə SMS göndərilir. SMS-lə tanış olduqdan sonra yoxlama kodu təsdiqlənir və gücləndirilmiş elektron imza PIN2 kodu daxil edilməklə SMS-lə göndərilmiş ərizə məlumatları imzalanır. Əməliyyat başa çatdıqdan sonra istifadəçinin səlahiyyətli nümayəndəsinin mobil telefon nömrəsinə fəaliyyətin dayandırılması barədə SMS və «Onlayn kargüzarlıq və E-VHF» bölməsindəki elektron qutusuna ərizənin göndərilməsi üzrə əməliyyat tarixçəsi daxil edilir. Səlahiyyətli nümayəndə ərizə və ərizənin göndərilməsi üzrə əməliyyat tarixçəsi ilə «Onlayn kargüzarlıq və E-VHF» bölməsinin «Göndərdiklərim» qovluğundan tanış ola bilər.

***Xidmətdən imtina halları***

Müraciət edən şəxsin hüquqi şəxsin səlahiyyətli nümayəndəsi olmadığı müəyyən edildikdə fəaliyyətin dayandırılması barədə daha əvvəl təqdim olunmuş ərizə üzrə məlumatlar AVİS-ə daxil edilərək, hüquqi şəxsin səlahiyyətli nümayəndəsi tərəfindən yenidən fəaliyyətin dayandırılması ərizəsinin təqdim edilməsi üçün müraciət olunduqda, fəaliyyəti dayandırılmış hüquqi şəxs tərəfindən həmin dövr daxil olmaqla fəaliyyətin dayandırılması barədə yeni ərizənin təqdim edilməsi üçün müraciət olunduqda xidmətin göstərilməsindən imtina edilir. İstifadəçinin səlahiyyətli nümayəndəsi ASXM tərəfindən verilmiş gücləndirilmiş elektron imzaya sahib olmadıqda, mobil telefon nömrəsi səhv bildirildikdə və ya həmin nömrə ilə bağlı nasazlıq olduqda, ərizədə qeyd edilməli olan məlumatlar dəqiq bildirilmədikdə də xidmətin göstərilməsindən imtina edilir. İmtina üçün əsaslar olmadıqda hüquqi şəxsin fəaliyyəti dayandırılır və ona bu barədə məlumat verilir.

**Aytən NƏBİYEVA**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Bakıda keçirilən VII Azərbaycan-Rusiya Regionlararası Forum çərçivəsində Azərbaycan və Rusiyanın müxtəlif vilayətləri arasında əməkdaşlığa dair 12 sənəd imzalanıb.

Prezident İlham Əliyevin 2016-cı il 16 mart tarixli sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" adlı sənəd müvafiq işçi qrupun rəhbərliyi altında yekunlaşıb.

Noyabrın 1-də Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı hərracda ümumilikdə 19 dövlət əmlakı olmaqla bir səhmdar cəmiyyəti, 17 kiçik dövlət müəssisə və obyekti, eləcə də bir nəqliyyat vasitəsi özəlləşdirilib.

Azərbaycan Ümumdünya Turizm Təşkilatı İcraiyyə Şurasının sədri seçilib.

Noyabrın 10-11-də Bakıda İran və Azərbaycanda investisiya yatırımı imkanlarının tanıdılması ilə bağlı konfrans keçiriləcək.

Niderlandda aqrar sahədə xarici investisiyaların Azərbaycan iqtisadiyyatına cəlb olunması məsələləri müzakirə edilib.

Birləşmiş Ərəb Əmirliklərinin tanınmış «Əl-Fəcr» qəzetinin baş redaktoru Şərif Əl-Bəsilin ölkəmiz haqqında silsilə məqaləsi çərçivəsində oktyabrın 31-də «Azərbaycan - Qafqazın mirvarisi. Ərəb turistlərinin turizm qibləsi» sərlövhəli yazısı qəzetin çap və elektron nüsxələrində dərc olunub.

Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan «Trans-Adriatik» (TAP) qaz boru kəmərinin Albaniya hissəsində 22 kilometr boru kəmər marşrutu boyunca sahələrə düzülüb və təxminən 14 kilometr borunun qaynağı tamamlanıb.

Azərbaycan və Gürcüstanın birgə tarif siyasəti nəticəsində tranzit yükdaşımaları yanvar-sentyabr aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə neftin nəqlində 4 dəfə, avtomobil nəqliyyatı ilə yükdaşımalarda 2,3 dəfə artım qeydə alınıb.

Ötən ilin doqquz ayı ilə müqayisədə Azərbaycanda kompüter və elektron məhsulların istehsalı 14,9%, elektrik avadanlıqlarının istehsalı isə 2,6 dəfə artıb.

Ötən ilin yanvar-sentyabr ayları ilə müqayisədə qida məhsullarının istehsalında 4,3 faiz artım qeydə alınıb.

# Vergi islahatları ictimaiyyətin müzakirəsində...

*Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı vergi sistemində yeni genişmiqyaslı islahatlar üçün mühüm baza yaradıb. İslahatların əhatə dairəsi, iqtisadi, sosial və ictimai əhəmiyyəti böyük olduğundan geniş ictimai müzakirələrə yol açıb. Müxtəlif ekspertlər, sahibkarlıq subyektlərinin nümayəndələri və iş adamları vergi sistemində gözlənilən dəyişikliklərə, habelə tətbiq edilməsi nəzərdə tutulan yeniliklərə dair öz fikirlərini bildirir, islahatların gözlənilən ictimai faydası barədə diskussiya aparırlar.*

*«Vergilər» qəzeti də bu fikir mübadiləsinə və həyata keçiriləcək vergi islahatlarının ictimai müzakirəsinə töhfə vermək məqsədilə ixtisaslaşmış mütəxəssislərin, dünya təcrübəsinə bələd olan ekspertlərin, sahibkarların ictimai birliklərinin nümayəndələrinin və iş adamlarının mövqeyini işıqlandırır, onların vergi qanunvericiliyi və inzibatçılığı sahəsində təkliflərinə və şərhlərinə öz səhifələrində yer ayırır.*

## İslahatların biznes üçün səmərəli olacağını proqnozlaşdırmaq olar



Qalib Bayramov,
*İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri*

2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərində nəzərdə tutulmuş tədbirlər ölkəmizdə vergi yükünün optimallaşdırılması yolu ilə vergitutma bazasının genişləndirilməsi, sahibkarlar (vergi ödəyiciləri) üçün münbit vergitutma rejiminin formalaşdırılması, əlverişli investisiya mühitinin təşviqi, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi ödəyicilərində könüllü vergiödəmə mədəniyyətinin formalaşdırılması və inkişafı kimi aktual məsələləri əhatə edir.

İstiqamətlərin hamısının ən yaxşı beynəlxalq təcrübənin və yerli xüsusiyyətlərin öyrənilməsi yolu ilə tətbiqinin ölkəmizdə sahibkarlıq mühitinin sağlamlaşdırılmasına, dövlət büdcəsinə vergi daxilolmaları sahəsində problemin yaranmamasına və ən əsası, bu sahədə şəffaflığın və hesabatlılığın yüksəlməsinə bir vəsilə olacağı şəksizdir.

Nəzərdə tutulan islahatların biznes üçün səmərəli olacağını proqnozlaşdırmaq olar. Xüsusilə də əlavə dəyər vergisinin (ƏDV) diferensiallaşdırılmasının kiçik və orta biznesin, ticarət, xidmət sektorunun fəaliyyətinin stimullaşdırılması baxımından böyük faydası olacaq. Pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərində ƏDV üzrə vergitutma obyektinin malların satış qiyməti ilə malgöndərənlərə ödənilən qiymət arasındakı fərqdən (ticarət əlavəsindən) hesablanması ilə bağlı qanunvericiliyə dəyişikliklər dünya praktikasındakı ən yaxşı mexanizmlərin Azərbaycana gətirilməsi deməkdir. Diferensiallaşdırma tətbiq edilməli olan malların (işlərin, xidmətlərin) siyahısı və həmin mallar üzrə ƏDV dərəcələrinin müəyyən edilməsi xüsusi əhəmiyyətə malikdir. Hər iki dəyişiklik ƏDV ödəyicisi olan sahibkarların bu dolayı vergi ilə bağlı son zamanlarda rastlaşdıqları praktiki problemlərin aradan qalxmasına öz töhfəsini verəcək, onların fəaliyyətinə əlavə imkanlar yaradacaq.

**Sabit verginin bəzi kiçik sahibkarlıq subyektlərində də tətbiqi məqsədəuyğundur**

İslahatların ən mühüm bəndlərindən biri kameral yoxlamalara yanaşmanın dəyişməsi və sahibkarların mənafeyinə uyğun metodların tətbiqinə aiddir. Bu sahədə nəzərdə tutulan dəyişikliklərin həyata keçirilməsi səyyar vergi yoxlamalarının xüsusi çəkisinin azalmasına və vergi ödəyicisi-vergi orqanı əməkdaşı təmaslarının minimuma endirilməsinə imkan verəcək ki, bunlar da paralel olaraq vergi ödəyicilərində vergi və mühasibat uçotunun təkmilləşdirilməsini təşviq edəcək. Bunun davamı olaraq, vergi orqanlarının vergi ödəyicilərində elektron audit aparmaq imkanları da artacaq.

Vergi ödəyicilərində mühasibat işinin beynəlxalq mühasibat uçotu standartlarına uyğun hazırlanması ilə bağlı nəzərdə tutulan dəyişiklikləri də müsbət addım kimi səciyyələndirmək olar. Bu, milli mühasibat uçotu standartlarının və uçot sənədlərinin qaydaya salınması ilə yanaşı, vergi ödəyiciləri tərəfindən aparılan əməliyyatlarda elektron qaimə-faktura sisteminin tətbiqinin də beynəlxalq standartlara uyğunlaşdırılmasına səbəb olacaq. Ən əsası isə bu istiqamət üzrə sənədləşmə işlərinin nizama salınması mənfi meyillərin qarşısını almaq və şəffaflığı təmin etmək baxımından xeyli faydalıdır. Ölkə Prezidentinin bir neçə il əvvəl imzaladığı «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanından sonra Vergilər Nazirliyi elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi qaydalarının layihəsini hazırlayaraq tətbiqinə başlasa da, müəyyən səbəblərdən bu sahədə istənilən nəticə əldə olunmadı. Hazırda isə bu sahədə ciddi addımlar atılmaqdadır və elektron qaimə-faktura sisteminin tətbiqi şəffaflıq, vergi bazasının genişləndirilməsi, vergidən yayınmanın qarşısının alınması və elektron sənəd dövriyyəsinin təşkili baxımından çox mühüm əhəmiyyət kəsb edir. Heç kəsə sirr deyil ki, bu gün malların alğı-satqısı, habelə iş və xidmətlərin göstərilməsi sahəsində kağız əsaslı qaimə-fakturanın təqdim olunması ilə bağlı ciddi problemlər var. Xüsusilə pərakəndə ticarət sistemində qaiməsiz malların dövriyyəsinin çox böyük olması faktı mövcuddur. Bu da mal dövriyyəsinin həcminin kiçildilməsi yolu ilə vergidən yayınma, eyni zamanda mənşəyi bəlli olmayan malların (xüsusən, ərzaq mallarının) ticarət şəbəkələrinə ayaq açması deməkdir.

İslahat istiqamətlərindən nağd pul hesablaşmaları nəzarət-kassa aparatları tətbiq edilmədən aparılan fəaliyyət sahələrinin dairəsinin dəqiq müəyyənləşdirilməsi və nəzarət-kassa aparatları tətbiq etmədən fəaliyyət göstərən fiziki şəxslərin vergi öhdəliklərinin aylıq sabit vergi formasında müəyyən edilməsi də indiyədək vergi ödəməkdən yayınan bəzi kiçik vergi ödəyicilərinin vergiyə cəlb olunması baxımından təqdirəlayiqdir. Yaxşı olardı ki, sabit vergi təkcə Vergi Məcəlləsinin 16.1.8-ci maddəsində nəzərdə tutulan NKA tətbiq etməyən fəaliyyət sahələrinə deyil, eyni zamanda NKA-ların tətbiqi məcburi olan bəzi kiçik sahibkarlıq subyektlərinə də (əsasən, ticarət və ictimai iaşə) aid edilsin.

*Hazırladı:* **E. CƏFƏRLİ**

## Vergi yoxlamalarının sərhədləri müəyyənləşdirilməlidir



Arif Həsənov,
*«NEON» firmasının rəhbəri*

Vergi sistemində aparılan islahatlar biznes sektorunun daha da canlandırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Yeni islahatlar kursu sahibkarlığın inkişafı üçün çox faydalıdır, amma bununla yanaşı, həlli vacib olan bəzi məsələlərin yeni hazırlanan fəaliyyət planlarında nəzərə alınması arzuolunandır.

Bir sıra hallarda vergi yoxlamalarının növləri arasında müəyyən uyğunsuzluqlar yaranır, səyyar yoxlama ilə növbədənkənar yoxlama arasında ciddi fərq olmur. Vergi Məcəlləsində səyyar və növbədənkənar yoxlamaların aparılması qaydaları öz əksini tapıb. Vergi ödəyicisi olaraq rastlaşdığımız çətinliklərdən biri bu yoxlamaların təyinatının tam dəqiqləşdirilməməsidir. Şirkətimizin dövriyyəsinin artdığına və vergi ödənişlərini vaxtında və müəyyən olunmuş həcmdə yerinə yetirməyimizə baxmayaraq, bəzən növbədənkənar yoxlamalar aparılır. Müəssisənin dövriyyəsi artıbsa, əvvəlki illə nisbətdə daha çox vergi ödəyibsə, belə halda onun yoxlanılması nə dərəcədə əsaslıdır?

Hesab edirəm ki, bu məsələ aydın həllini tapmalıdır. Fəaliyyəti və ödənişləri şübhə doğurmayan müəssisələrdə belə yoxlamaların aparılması yolverilməzdir, yoxlamalar vergini ödəməyən, vergi öhdəliyini düzgün yerinə yetirməyən şirkətlərdə aparılmalıdır. Təklifim budur ki, bu cür vergi yoxlamalarının sərhədləri müəyyənləşdirilsin, yeni islahatlar paketində yoxlamaların sadələşdirilməsi məsələsi öz həllini tapsın.

Sahibkarlıq sektorunda ən çox rast gəlinən problemlərdən biri də ƏDV ilə bağlıdır. Vergi qanunvericiliyinə əsasən, bəzi sahələrdə ƏDV-dən azadolmalar mövcuddur. Buğda unu və çörək istehsalı, satışı 2016-cı il yanvarın 1-dən 1 il müddətinə ƏDV-dən azad edilib. Vergidən azadolma ilə bağlı qanun 19 fevral 2016-cı il tarixdə qüvvəyə minib və bununla bağlı Vergi Məcəlləsinə yeni - 164.1.27-ci maddə əlavə edilib. Qanuna əsasən, 2016-cı il yanvar ayının 1-dən fevral ayının 19-dək ƏDV ödənilməklə alınmış mallara görə bağlanmış müqavilələrdə dəyişiklik edilməklə buğdanın, buğda ununun və çörəyin satışının ƏDV-dən azad olunması göstərilməli, onların qiymətlərinə müvafiq dəyişikliklər edilməli, əvəzləşdirilmiş və hesablanmış ƏDV məbləğləri vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi yolu ilə yenidən hesablanmalıdır. Dəqiqləşdirmələr qiymətləndirmə bazasında dəyişiklik baş verdiyi hesabat dövründə, yəni 2016-cı ilin fevral ayının ƏDV bəyannaməsində aparılmalıdır.

**ƏDV-nin əvəzləşdirilməsi ilə bağlı yaranan texniki uyğunsuzluqların aradan qaldırılması zəruridir**

Hesabat cədvəlində texniki nöqsanlar səbəbindən bəzi mallar üzrə ƏDV-nin əvəzləşdirilməsinin nəzərə alınmaması sahibkarların itkilərinə səbəb olur. Bu problemlə bağlı vergi orqanları ilə dəfələrlə məsləhətləşmələr aparılıb. Fikrimcə, problemin həlli məqsədilə hesabat cədvəlinin ƏDV-dən azadolmalar qrafaları yenidən tərtib olunmalı, uyğunsuzluqlar aradan qaldırılmalıdır. ƏDV-nin diferensiallaşdırılması ilə bağlı hazırlanan yeni qaydalarda bu məsələlərin həlli nəzərə alınmalıdır.

Sahibkarların ƏDV ilə əlaqədar arzuladığı məqamlardan biri çörəkbişirmə sənayesində güzəştlərin tətbiq olunması, çörək satışına tətbiq edilən ƏDV ilə digər mallara, məsələn, tütün və alkoqollu içkilərin satışına tətbiq olunan ƏDV-nin fərqləndirilməsidir.

# Tale şairinə vida sözü

**_Görkəmli şair, publisist, dramaturq, «Vergilər» qəzetinin əməkdaşı Taleh Həmid noyabrın 1-də vəfat etdi. Bu yazı onun işıqlı xatirəsinə həsr olunub_**

Dörd il əvvəl Taleh Həmidin 60 illik yubileyi ərəfəsində bir esse yazmışdım. Yazı boyu «Taleh - tale» assosiasiyası beynimdən çəkilmir, məni Talehin şeirlərini tale işığına tutmağa, yazılarında onun, eləcə də bizim - dünyanın tozlu yolları boyunca yarım əsrdən artıq ayaq döyüb yaşı 60-ı haqlamış nəslin bəxtinə düşən, qədərinə çevrilən taleyin izlərini axtarmağa, əks-sədasını soraqlamağa təhrik edirdi...

Ancaq Talehin ömür yolu o qədər eniş-yoxuşlarla, sərt sınaqlarla, eləcə də işıq və enerji ilə doludur ki, onun tale-qədər yazısını ümumiləşdirmək, başqaları ilə ortaqlaşdırmaq çox çətin görünürdü. Talehin ömür yoluna güzgü tutan yaradıcılığında, ədəbiyyatşünaslıq dili ilə desək, «tipik obraz» axtarıb tapmaq çox çətindir.



*Ürəyim dolub gəlmişəm,*
*Yaman çağlamağım gəlir.*
*Yazın bu xoş vədəsində*
*Bir az ağlamağım gəlir,*
*Qulağını tut, bənövşə...*

Həyatının uc nöqtəsində, ömrün başlanğıcında Talehin taleyinə düşən ağır yük onun şeirində belə çiçəkləmişdi. Bu şeir yazın bir xoş vədəsində ata məzarının üstündə bitmiş, kövrək qanadlı, zərif ləçəkli boynubükük bənövşə ilə səmimi ürək söhbəti, daxili monoloqdur. Əslində, bu mənzərə atasını çox erkən itirmiş Talehin öz uşaqlıq və ilkin gənclik obrazıdır: məzar daşının yanında bitən kövrək bənövşə... Həmin bənövşə xeyli sonra Talehin şeirində yenidən canlanacaqdı...

Daha sonra isə həmin bənövşə neçə-neçə ağır daş yanında bir daha açacaqdı: varlığı dadlıdandadlı, itkisi acıdan-acı övlad daşının, istəklidən-istəkli, həssas ürəyi tez yanıb kül olan qardaş daşının, əzizdən-əziz yaxınların, doğmaların daşının yanında...

Talehin ilk şeirlərində - həm birbaşa ata xatirəsinə həsr olunmuş yazılarında, həm də ümumiyyətlə yaradıcılıq baxışında ən böyük tale izi ata itkisidir. Lakin bu şeirlərdə atasızlığın ağrısı, yetimlik, çarəsizlik tragizmindən əsər-əlamət yoxdur. Böyük səmimiyyətlə yazılmış bu şeirlərdə ata sevgisinin ifadəsi daş yanında bitən zərif bənövşə, vaxtsız quruyan ağaclar, sərt əsən acı payız sazağı, kəndin üstünə ruh kimi enən qürub, üfüqlərdə ümid kimi baş qaldıran dan yeri, dan üzünün şehindən kövrəlib ağlayan daş şəklində sıraya düzülür, tale daşıyıcısına çevrilir və ən maraqlı cəhət də budur ki, oxucuda həyat sevgisi yaratmağa xidmət edir. Vaxtilə ata əlinin hərarəti ilə həyat tapmış, bu hərarət üstündən çəkiləndən sonra isə qurumuş ağaclar övladın qəlbində ata abidəsinə çevrilir:

*Günlərimi, aylarımı ölçürlər*
*Yarpaq-yarpaq, budaq-budaq quruyub*
*Bu dünyadan köç etdikcə.*
*Gözlərimə köçürlər*
*Atamın özü kimi -*
*Atam əkən ağaclar...*

Talehin taleyində və şeirlərində, bir insan kimi qədərində dərin izi qalan daha bir hadisə övlad itkisi olmuşdur. Həyatla çox erkən vidalaşmış övlad xatirəsinə həsr olunmuş şeirlərdə də Talehin taledən uca dayandığını görürük və mən bunu şair dostumun daxili gücünün və ləyaqətinin təntənəsi kimi qiymətləndirirəm. Taleh şeirlərində «dərdi dərdlə yumağa» çalışmadı, öz övladının lap başlanğıcda bənövşə ləçəyi kimi qırılan kövrək ömrünün, arzularının davamını onun yaşıdlarında, həyata yeni qədəm qoyan gənclərdə görməyə çalışdı və gördü. Taleh dərdin önünə sevgi və ümid qoymağı bacardı.

Taleh ağır xəstəliklər keçirmişdi, son dəfə ürəyində əməliyyat aparılmışdı. Ölümlə üz-üzə gələndə, həyat uğrunda döyüşəndə belə, Taleh öz müdrikliyini və həyat sevgisini, həyatda qalan insanların taleyi sarıdan keçirdiyi nigaranlığını itirməmişdi. Taleh üçün hətta həyatın son ucu, axır nöqtəsi olan ölüm ayağında belə «həyat şirin, ömür gözəl...» olmuşdu. Şairin öz varlığının davamı olan oğlu Cəlala yazdığı məktublar, bu baxımdan, ibrətamiz məna daşıyır: «Ölümdən qorxmurdum və indi də qorxmuram. Çünki ölüm də Tanrının məsləhətlərindən biridir. Amma sənin taleyindən nigaran idim. İndi də nigaranam. O vaxtlar sənin on beş yaşın tamam olurdu. Mən də nə qədər xəstə olsam da, özümdə güc tapıb sənə bir şeir yaza bilmişdim:

*Həyat şirin, ömür gözəl əzəldən,*
*Bil qədrini ötüb keçən hər anın.*
*Yorulma arzudan, işdən, əməldən,*
*Tut nəbzini bəri başdan dünyanın...*
*Dünya mərdlik dünyasıdı, bilginən,*
*Ağac əkən öz barını görəcək.*
*Ağlayanın göz yaşını silginən,*
*Tanrı bir gün əvəzini verəcək».*

Taleh, özünün də dediyi kimi, Tanrının məsləhətinə əməl elədi, taleyin son əmrini yerinə yetirdi.

Özü getdi, xoş xatirələri, qiymətli əsərləri qaldı. Yaradıcı insan taleyinin qanunu budur.

Lakin bir həqiqət də var ki, Talehin insan kimi ömrü və ömrünü əks etdirən yaradıcılığı taleyindən çox-çox ucadır.

**Məti OSMANOĞLU**

# ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin noyabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin noyabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

# Səmərəli dostluq bəhrəsini verir

Vergilər Nazirliyi əhalinin, xüsusilə də gənclərin vergilərə dair biliklərinin artırılması, cəmiyyətə vergi mədəniyyətinin daha dərindən və səmərəli aşılanması məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirir. Bu tədbirlərin əksəriyyəti Təhsil Nazirliyi, müxtəlif təhsil müəssisələri, həmçinin ictimai təşkilatlarla birgə təşkil olunur.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin şöbə rəisi Azər Şirinovun sözlərinə görə, 2012-ci ildə yaradılmış «Vergi dostları» şəbəkəsi vasitəsilə vergi orqanları tərəfindən rayon təhsil şöbələri və ümumtəhsil məktəbləri ilə birgə 53 inzibati ərazi vahidində 1453 kənd və qəsəbə üzrə orta ümumtəhsil məktəblərinin müəllimləri arasından 1541 müəllim seçilərək, onlar üçün təlimlər təşkil edilib. «Vergi dostu» seçilmiş müəllimlərin fəaliyyətinin əlaqələndirilməsi və gördükləri işlər barədə məlumatları ictimaiyyətə çatdırmaq imkanlarının genişləndirilməsi məqsədilə «Facebook» sosial şəbəkəsində «Vergi dostları» qrupu yaradılıb. Bu ilin 9 ayı ərzində vergi orqanları tərəfindən «Vergi dostları» şəbəkəsinin üzvləri ilə 48, şagird və tələbələrlə 134, orta ümumtəhsil məktəblərində təşkil edilmiş metodiki kabinetlərdə isə 30 görüş keçirilib.

Ağsu rayonu Muradlı kənd tam orta məktəbinin ingilis dili müəllimi, «vergi dostu» İbrahim Cavadov ayda bir neçə dəfə vergi və vergi ödəməyin faydaları haqqında şagirdlərə məlumat verdiyini bildirir: «Yuxarı sinif şagirdlərinə nağdsız alış-verişin necə aparılması haqqında (plastik kartlardan terminal vasitəsilə ödəniş) məlumat çatdırmışam. Kənd sakinləri ilə fərdi qaydada vergilərin internet vasitəsilə ödənilməsi haqqında maarifləndirici söhbətlər aparmışam. Kənddə bir neçə taksi sürücüsü var ki, söhbətlərimizdən sonra vergilərini vaxtlı-vaxtında ödəməyə çalışırlar. Bu isə həm onların, həm də vergi orqanı əməkdaşlarının işini asanlaşdırıb».

İ.Cavadov bu fikirdədir ki, ümumtəhsil müəssisələrində ayrıca vergi fənni tədris olunmalıdır: «Şagirdlərin riyaziyyat, tarix, kimya, fizika və s. ixtisas fənlərindən təməl anlayışları olduğu halda, vergi ilə bağlı ilkin anlayışları çox zəifdir. Vergi fənninin tədrisinin bir faydası da bu ola bilər ki, hər bir valideyn övladının dərsləri ilə maraqlanarkən vergi fənninin dərsliyini də nəzərdən keçirib oradan nələrisə öyrənə bilər. Bu, ailə daxilində psixoloji mühitə də müsbət təsir göstərər. Vergi ilə bağlı məlumatlı olan məktəbli evdə atasına: «Sən vergini ödəmisən?»- sualını verəndə vergi ödəməyən ata ikinci dəfə bu sualın qarşısında aciz qalmamaq üçün vaxtlı-vaxtında öz vergisini ödəməyə çalışacaq».

Qusar rayon Balaqusar kənd tam orta məktəbinin müəllimi, «vergi dostu» Ceyhun Ağabəyov fəaliyyət göstərdiyi kənddə 32 vergi ödəyicisinin olduğunu bildirdi: «Hazırda onlardan 28 nəfəri aktiv vergi ödəyicisi hesab olunur. Vaxtaşırı görüşlərimizin nəticəsi olaraq, təmsil etdiyim ərazidəki vergi ödəyicilərinin böyük bir hissəsi - 20 nəfəri internetdən istifadə edə bilir, yeniliklərlə tanış olur, vergi hesabatlarını özləri yazıb təqdim edə bilirlər. Məktəbdə şagirdlərlə mövcud vergi qanunvericiliyi, qanunvericilikdəki dəyişikliklər barədə söhbət edir, onları Vergilər Nazirliyinin internet resurslarından əldə etdiyim yeniliklərlə tanış edirəm. Bu da sevindirici haldır ki, şagirdlərim Vergilər Nazirliyinin təşkil etdiyi bilik yarışlarında yüksək yerləri tutublar. Bu, onlarda vergi mədəniyyətinin formalaşdırılmasına müsbət təsir göstərir. Yarışlarda fərqlənən gənclərimiz gələcəyin yaxşı vergi işçisi və vergi ödəyicisi olmağa layiqdirlər».

**FƏXRİYYƏ**

# Aqrar idarəetmənin yeni mərhələsi

Aqroparklar kənd təsərrüfatı sektorunda fəaliyyətin kompleks halda tənzimlənməsinə imkan yaradır. Kənd təsərrüfatının inkişafını təmin etmək, aqrar sahədə idarəetməni müasir dövrün tələblərinə uyğunlaşdırmaq baxımından vacib addım kimi qiymətləndirilən aqroparklar vasitəsilə fermer istehsal etdiyi məhsulu heç bir itki vermədən birbaşa istehsalçıya çatdıra bilir.

Prezident İlham Əliyevin aqroparkların yaradılması ilə bağlı fərmanına əsasən, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində, idxalın yerli məhsullarla əvəz olunmasında, ölkənin ixrac potensialının genişləndirilməsində mühüm rol oynayacaq 20-dək aqroparkın yaradılması nəzərdə tutulub. Bu məqsədlə müvafiq yerlər və infrastruktur tələbatı müəyyənləşdirilib.

İqtisadçı ekspert Pərviz Heydərovun sözlərinə görə, sənaye istehsalı və kənd təsərrüfatı hökumətin gələcək fəaliyyəti üçün prioritet sahələrdəndir: «Bu istiqamətlərdə hələ bir neçə il öncədən zəruri tədbirlər görülməyə başlanılıb, cari ildən isə proses daha da intensivləşib. Bu baxımdan, ölkədə rəqabətədavamlı sənaye məhsulları istehsalına nail olmaq və onu daha da artırmaq məqsədilə sənaye parklarının yaradılması istiqamətində aparılan işlər çox yüksək qiymətləndirilməlidir». Onun sözlərinə əsasən, ölkədə kənd təsərrüfatı məhsullarının istehsalçıları üçün 27 noyabr 2001-ci il tarixdə təsdiq edilmiş «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Qanun hələ də qüvvədədir: «Burada xammal bolluğu əldə etmək məqsədilə istehsal və tədarükün, əsasən, kiçik sahibkarlıq fəaliyyəti sayəsində artması və genişlənməsinə nail olmaq tələb edilir. Müvafiq emal müəssisələri də yalnız bundan sonra təşəkkül tapmalıdır. Bu mənada, aqroparkların yaradılması zəruri idi və kənd təsərrüfatı sektorunun kompleks inkişafı üçün bu, ən gözəl vasitə və mexanizm kimi qiymətləndirilməlidir».

> Ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və ixrac-idxal potensialının yerli məhsullar hesabına genişləndirilməsi məqsədilə yaradılan aqroparklar bu sahənin sıçrayışlı inkişafı üçün mühüm zəmin olacaq

Yalamada 523 hektar sahədə yaradılmış aqroparkın birinci mərhələsi üzrə işlər artıq başa çatdırılıb, ikinci mərhələdə isə burada müasir texnologiyanın tətbiqi ilə gündəlik emal gücü 100 tona çatan süd emalı zavodu tikmək planlaşdırılır. Zavodda istehsal olunacaq məhsullar - kərə yağı, quru süd və pendir isə həm daxili, həm də xarici bazarlarda satılacaq. Şəmkirdə də belə bir parkın yaradılması istiqamətində ilkin mərhələ üzrə işlər gedir.

Ekspertin fikrincə, ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və ixrac-idxal potensialının yerli məhsullar hesabına genişləndirilməsi məqsədilə yaradılan aqroparklar bu sahənin sıçrayışlı inkişafı üçün mühüm zəmin olacaq: «Çünki aqroparklar səmərəli və kompleks yanaşmaya əsaslanır. Bu və ya digər rayonda, misal üçün, meyvə emalı zavodu və ya fabriki fəaliyyət göstərdiyi halda, kənd əhalisinin həyətlərindəki meyvə-tərəvəz çürüyərək batırsa, deməli, burada effektiv yanaşma tələb olunur. Aqroparklar bu boşluğun aradan qaldırılması üçün ən gözəl nümunə olacaq».

**F. İKRAMQIZI**

## vergi taqvimi

| NOYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | **15** | 16 | 17 | 18 | 19 | **20** |
| **21** | 22 | 23 | 24 | 25 | 26 | **27** |
| 28 | 29 | 30 | | | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

15 noyabr - «5», «(5)» və «6».

21 noyabr - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman-mərc oyunları üzrə)** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Fiziki şəxslər illik əmlak vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. İllik torpaq vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

**Vergilər Nazirliyi**

beynəlxalq panoram

# Korporativ vergi dərəcəsinin azaldılması prosesi təxirə salınıb

Belçikanın Avropa İttifaqının büdcə kəsirinin azaldılması tələbləri çərçivəsində saxlamağa yönəldilmiş büdcə planı, nəhayət, oktyabrın 14-də hakim koalisiyanı təmsil edən dörd partiya arasında razılaşdırılmışdır. Bununla belə, müəyyən kompromislərə ehtiyac yaranmış, korporativ vergiyə və kapitalın artımına tətbiq olunan vergiyə aid qərarlar təxirə salınmışdır.

Hazırda 33% təşkil edən (bu, Avropada ən yüksək dərəcələrdəndir) korporativ verginin dərəcəsini aşağı salmağı ilk dəfə maliyyə naziri Yohan Van Overtveld təklif etmişdi. Flamand xristian-demokrat partiyasının, kiçik şirkətlər istisna olmaqla, qısamüddətli investisiyalardan əldə olunan kapitalın artımı üçün yeni 30%-lik vergi qoymaq təklifini də sonradan müzakirə etmək qərara alınmışdır.

Hazırda kapital artımından əldə edilən gəlirlər korporativ gəlir kimi 33,99%-lə vergiyə cəlb olunur, baxmayaraq ki, artım müəyyən səhmlər alındıqdan sonra onların bir il ərzində satışından əldə edilir və 25%-lik dərəcə ilə vergiyə cəlb olunur. Bir illik gözləmə müddətindən sonra satılan səhmlərdən əldə olunan gəlir kapitalın artımı üçün tutulan vergidən azaddır, 0,4%-lik vergi isə iri şirkətlərin səhm paketlərinin utilizasiyasına aiddir.

# Fransada əmlak vergisi artmaqdadır

Ölkədə yerli əmlak vergisi (Taxe Foncière) 2010-cu ildən 2015-ci ilədək orta hesabla 15% artmışdır. Fransada daşınmaz əmlak sahibinin mülkiyyətində olub-olmamasından, icarəyə verilib-verilməməsindən və ya boş qalıb-qalmamasından asılı olmayaraq, hər il vergiyə cəlb olunur. Bu verginin strukturunu kommunal, ərazi və bələdiyyə elementləri təşkil edir, gəlirlər isə yerli xidmətlərin maliyyələşdirilməsinə sərf olunur. Fransa Ev Sahibləri Assosiasiyasının son hesabatına əsasən, keçən il regionlar üzrə fərqli olan yerli əmlak vergisinin orta dərəcəsi 19% təşkil etmişdir. Ölkənin dörd iri şəhərində isə əmlak vergisi 2015-ci ilə qədər beş il ərzində 20%-dən çox: Anjedə 20,94%, Klermon-Ferranda 20,57%, Lionda 20,34%, Kreteydə isə 20,14% olmuşdur.

Əmlak sahibləri üçün yeganə təsəlli isə verginin ümumi artım tempinin 2007-2012-ci illərlə müqayisədə daha aşağı olmasıdır, o vaxt orta artım 21% idi.

# ƏDV fırıldaqçılarından ibarət qrup həbs olunub

Avropa İttifaqına üzv olan on iki dövlətin hüquq-mühafizə orqanları ilə Avropol 320 milyon dollar məbləğində ƏDV fırıldaqçılığına görə cinayətkar qrupun üzvlərini həbs etmişdir. İttifaqın məhkəmə əməkdaşlığı bölməsi olan «Avroyust»un məlumatına görə, Avstriya, Belçika, Almaniya, İrlandiya, İtaliya, Niderland, Norveç, Polşa, İspaniya, İsveç, İsveçrə və Böyük Britaniya kimi ölkələrin prokurorluq və hüquq-mühafizə orqanlarının əməkdaşları oktyabrın 19-da aparılmış əməliyyatda iştirak etmişlər.

«Avroyust»un nümayəndəsi demişdir: «Cinayətkar dəstə bufer şirkətlərin və alternativ ödəmə platformaları kimi fəaliyyət göstərən kompaniyaların mürəkkəb strukturundan çirkli pulların yuyulması məqsədilə istifadə etmişdir və cinayətkar fəaliyyətlə bağlı pul köçürmələri Avropa İttifaqının müxtəlif üzv ölkələrinə, eləcə də İttifaqa üzv olmayan digər ölkələrə yayılmışdır». Qeyd edilmişdir ki, 18 həbs qərarı verilmişdir və 696.710 dollardan artıq məbləğdə aktivlərə İsveçrədə dondurulmuş hesablarla birlikdə həbs qoyulmuşdur. Bu təhqiqatın ilkin mərhələsində Avropolla sıx əməkdaşlıq, eləcə də keçən aylarda əldə olunmuş uğurlar, ikitərəfli və çoxtərəfli koordinasiya yığıncaqları üzv dövlətlərə şərait yaratmışdır ki, əsas iştirakçıları üzə çıxarsın və Avropa üzrə hüquq-mühafizə orqanlarının 200-dən artıq əməkdaşının iştirakı ilə sərhədlər üzərindən əməliyyat aparsın.



# İrlandiyada əcnəbilər investisiya gəlirlərinə görə vergi ödəyəcəklər

Maliyyə Nazirliyinin qeyri-rezidentlərin daşınmaz əmlaka qoyduqları investisiya gəlirləri üçün tətbiq etdiyi yeni verginin dərəcəsi 20% olacaq. Hökumətin vergi qanunvericiliyinə etdiyi düzəlişə əsasən, əcnəbi investorlar vergi ödənişlərinin minimallaşdırılması üçün cürbəcür «strukturlardan» istifadə edə bilməyəcəklər.

Ekspertlərin rəyinə görə, əcnəbilərin gəlirlərindən vergi tutulması ilk növbədə o şəxslərə aid ediləcək ki, onlar son vaxtlara qədər İrlandiyada iki növ əmlak fondu - «Aktivlərin kollektiv idarə edilməsi üzrə İrlandiya təşkilatı» (ICAV) və «İxtisaslaşmış investorlar üçün alternativ fond» vasitəsilə daşınmaz əmlak satın almışlar. Bu fondların İrlandiyadakı əmlak aktivlərinin ümumi məbləğinin isə 12 milyard avro həcmində olduğu təxmin edilir.

Hökumətin planına əsasən, investorların vergi ödəməkdən yayınmalarının qarşısının alınması üçün vergi qanunvericiliyi bundan sonra da sərtləşdiriləcək . Bununla belə, Maliyyə Nazirliyinin yaydığı bəyanatda bildirilir ki, investorların bəzi qrupları, o cümlədən pensiya fondları, həyat sığortası və digər kollektiv investisiya qurumları yeni vergidən azad edilmişlər.

# ABŞ vergi orqanları offşor borclarını büdcəyə qaytarır

ABŞ-ın fiskal orqanlarının yaydığı məlumata əsasən, vergi məlumatlarının könüllü açıqlanması proqramına qoşulan vergi ödəyicilərinin sayı artıq 100 mini keçmişdir. Bunun sayəsində 2009-cu ildən indiyədək 10 milyard dollardan artıq vəsaiti vergi və cərimə şəklində büdcəyə cəlb etmək mümkün olmuşdur.

Son məlumatlara əsasən, bəyan edilməmiş aktivləri offşor zonalara köçürmüş 55.800 vətəndaş 9,9 milyard dollar vəsaiti vergi və dəbbə kimi ödəyərək, öz vergi öhdəliklərini tənzimləməyə nail olmuşdur. Bundan əlavə, vergi ödəməkdən bilməyərəkdən yayınmış 48 min fiziki şəxs də vergi öhdəliklərinin razılaşdırılmasının sadələşdirilmiş prosedurundan keçərək dövlət büdcəsinə ümumilikdə 450 milyon dollar məbləğdə vergi, dəbbə və cərimə ödəmişlər.

ABŞ-ın Daxili Gəlirlər Xidmətinin komissarı Con Koskinen demişdir: «Biz vergi məlumatlarının könüllü açıqlanması proqramı çərçivəsində offşor hesablardan 10 milyard dollara yaxın vəsaiti ölkəmizə qaytarmağa nail olmuşuq. Xaricdəki hesabların sahibləri, öz gəlirlərini gizlətməyə çalışan vətəndaşlar barədə getdikcə daha çox məlumat aldığımız üçün onların bunu etməsi xeyli çətinləşəcək».

## Xəbər lenti

**Rusiya**da üzümüzə gələn il yanvarın 1-dən birdəfəlik elektron siqaret üçün verginin dərəcəsi 40 rubl (1 manat) təşkil edəcək. Ümumilikdə isə tütün üçün aksizlər 10% artırılacaq. Bundan əlavə, alkoqollu içkilər və neft məhsulları üçün aksiz dərəcələri də indeksləşdiriləcək.

**Almaniya** kansleri Angela Merkel Panamanın vergi şəffaflığı üzrə yeni beynəlxalq standartlara əməl olunmasında göstərdiyi səyləri yüksək qiymətləndirərək demişdir ki, iki ölkə arasında vergilərə dair informasiya mübadiləsi ilə bağlı saziş yaxın vaxtlarda imzalana bilər.

**Portuqaliya**nın Baş naziri Antonio Kosta təsdiq etmişdir ki, bahalı əmlakdan tutulması planlaşdırılan zənginlik vergisi 2017-ci ildən qüvvəyə minə bilər. Bu verginin dərəcəsinin 0,3% olacağı nəzərdə tutulur.

**İtaliya**nın fərdi sahibkarlar assosiasiyası CGIA-nın hesablamasına əsasən, ölkə əhalisi bu il qazancının 49%-ni vergilər şəklində dövlətə qaytarmalı olacaq. Bu bəyanat onu təsdiqləyir ki, hökumətin fiskal yığımları azaltmaqla bağlı vədləri və göstərdiyi cəhdlər nəticəsiz qalacaq.

**Ukrayna**nın Nazirlər Kabineti 2017-ci ilin büdcə layihəsinin yekunlaşdırılması çərçivəsində Vergi Məcəlləsinə edilmiş dəyişiklikləri təsdiqləmişdir. Bu dəyişikliklər ölkədə vergi inzibatçılığının əhəmiyyətli şəkildə sadələşdirilməsinə imkan yaradacaq.

# Fransa maliyyə əməliyyatlarından tutulan vergini artırır

Ölkə parlamentində 2017-ci ilin büdcəsinə edilmiş dəyişikliyə əsasən, maliyyə əməliyyatlarından tutulan verginin dərəcəsi artırılacaq və vergi bazası genişləndiriləcək.

2012-ci ildən qüvvədə olan vergi qanunvericiliyi çərçivəsində səhmlərlə bağlı maliyyə əməliyyatlarından 0,2%, derivativlər üzrə əməliyyatlardan isə 0,01% vergi tutulur. Qanunda edilmiş dəyişikliyə görə, gələn ildən səhmlərlə aparılan maliyyə əməliyyatlarından 0,3% dərəcəsi ilə vergi tutulacaq və qısamüddətli sövdələşmələr (birgünlük ticarət əməliyyatları) vergiyə cəlb ediləcək. Maliyyə əməliyyatlarının vergiyə cəlb olunmasının başlıca səbəbi beynəlxalq yardım məqsədilə ayrılmış büdcə kəsirinin yerinin doldurulmasıdır. Hazırda bu büdcənin gəlirlərinin 50%-i qeyd olunan vergi daxilolmalarının hesabına doldurulur, gələn ildən isə qanuna edilmiş dəyişiklik sayəsində həmin rəqəm 75%-ə çatdırılacaq.



## krossvord

**Yuxarıdan aşağı:** 1.Nəşriyyat termini: səhifələnmə prosedurundan keçmiş və çapdan əvvəl son razılaşma üçün müəllifə qaytarılan nüsxə; 2.Nitq qüsurlarının aradan qaldırılması və qarşısını almaq üzrə ixtisas; 3.At ilxısı. Həmçinin, kimyəvi silahlar sinfinə aid toksik maddə; 4.Öz ehtirasını təmin etmək üçün başqasına işgəncə verən və bundan həzz alan şəxs; 5.Avropa mənşəli qadın adı; 6.Tamın iki bərabər hissəsindən biri; 7.Mühasibatda aktiv və passiv hesabların qalıqlarını göstərən və hər hansı bir təsərrüfat obyekti və ya müəssisənin müəyyən dövr ərzindəki maliyyə vəziyyətini əks etdirən ümumi cədvəl; 13.Bir sıra dövlətlərdə pul vahidi; 15.İdman avtomobili (sportkar) markası; 16.Hərbi yük qatarı; 17.Proqramlaşdırma dili; 18.Kiçik və orta həcmli nəsr nümunəsi, ədəbi janr; 20.«Bəxt üzüyü» bədii filmində Moşu obrazını canlandıran Azərbaycan aktyorunun adı; 21.Üst paltar üçün naxışlı yun parça materialı.

**Soldan sağa:** 1.Türkiyənin tanınmış futbol klubu; 8.Türkmənistanın paytaxtı; 9.Cütdırnaqlılar dəstəsinə aid heyvan. Populyar Azərbaycan xalq mahnısı; 10.Qiymətli kağızlardan faiz almaq üçün onlardan kəsilən talon; 11.Sakit okean akvatoriyasına daxil olan dəniz; 12.Normativ akt; 14.Sinifli cəmiyyətdən əvvəlki dövrdə insanların qohumluq münasibətinə, dil və ərazi ümumiliyinə əsaslanan birlik; 19.Avtomobil markası; 21.Antonio Salyerinin operası; 22.Qadın adı; 23.Elmi dərəcə almaq üçün dissertasiya müdafiəsinə hazırlaşan şəxs; 24.Peyğəmbərlərdən birinin adı; 25.Cənubi Afrikada Zambiya ilə Zimbabvenin sərhədində şələlə.



Zambiya ilə Zimbabvenin sərhədində şələlə

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Almatı; 2.Tangens; 3.Qırat; 4.Atlama; 5.İnfarkt; 6.Mantu; 7.Artrit; 13.Yuan; 15.YUNESKO; 16.Kolumb *(Xristofor)*; 17.Xromit; 18.Kornet; 20.Tabor; 21.Dönər. **Soldan sağa:** 1.Astiqmatizm; 8.Mineral; 9.Fanat; 10.Trest; 11.Merkuri; 12.Asiya; 14.Utoya; 19.Oktyabr; 21.Dinqo; 22.Uşba; 23.Amundsen *(Rual)*; 24.Bir; 25.Natürmort.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 13000

## idman

# «Tour d'Azerbaidjan-2017» veloyürüşünün vaxtı müəyyənləşib

**Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.1 kateqoriyalı «Tour d'Azerbaidjan» veloyürüşü gələn il mayın 3-7-də keçiriləcək. Bu yarış artıq UCI-nin 2017-ci il üçün müəyyənləşdirdiyi təqvim planına daxil edilib.**




Veloturun məhz həmin tarixlərdə keçirilməsi gələn il mayın 12-22-də Azərbaycanın ev sahibliyi edəcəyi IV İslam Həmrəyliyi Oyunları ərəfəsində dünya idman ictimaiyyətinin diqqətinin ölkəmizə bir daha cəlb olunması baxımından gözəl imkandır.

Xatırladaq ki, ötən il «Bakı-2015» birinci Avropa Oyunlarından əvvəl təşkil olunan «Tour d'Azerbaidjan» veloyürüşünün marşrutu Oyunların, eləcə də yarışların keçirildiyi idman qurğularının təbliği baxımından mühüm rol oynamışdı.

Onu da qeyd edək ki, UCI-nin təqvim planında nüfuzuna görə dünya çempionatından və Dünya kuboku yarışlarından sonra gələn dağ velosipedi üzrə yüksək kateqoriyalı «Champion-Race Azerbaijan» beynəlxalq yarışı da yer alıb. Həmin turnir isə 2017-ci il oktyabrın 1-də keçiriləcək.

## İdmançımız beşqat dünya çempionu oldu

Avstriyanın Lints şəhərində keçirilən karate üzrə dünya çempionatının dördüncü günü Azərbaycan milli komandası üçün uğurlu olub. Bu vaxta qədər dördqat dünya çempionu tituluna yiyələnən məşhur karateçimiz Rafael Ağayev (75 kq) növbəti dəfə rəqiblərinə heç bir şans verməyərək beşqat dünya çempionu olub. Macarıstan, Hollandiya, Özbəkistan və Ermənistandan olan rəqiblərini məğlub edən R.Ağayev yarımfinalda iranlı idmançıya qalib gəlib. Bunadək dördqat dünya və 13 dəfə Avropa çempionu olan idmançımız final görüşündə Misir idmançısı Əbdül Rəhman Ömər ilə qarşılaşıb. Rəqibindən aşkar üstün olan R.Ağayev beşqat dünya çempionu adını qazanıb. Bununla da Rafael Ağayev rekord sayda dünya çempionu kimi adını dünya karate idmanı tarixinə yazıb.



Finalda mübarizə aparan digər idmançımız - 84 kq çəkidə döyüşən Ayxan Mamayev yapon karateçisi Araqa Ryutaronun müqavimətini qıra bilməyib və yarışı gümüş medalla tərk edib.

60 kq çəki dərəcəsində tatamiyə çıxan Firdovsi Fərzəliyev bürünc medal uğrunda görüşdə Mərakeş idmançısı Abdelsalam Ameknassi ilə qarşılaşıb. İnamlı mübarizə aparan F.Fərzəliyev qələbə qazanaraq, çempionatın bürünc medalına sahib olub.

Çempionat oktyabrın 30-da komandalararası yarışlarla yekunlaşacaq.

# Elxan Məmmədov «Böyük dəbilqə»nin ən yüksək kürsüsündə

Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində cüdo üzrə «Böyük dəbilqə» beynəlxalq turnirinə yekun vurulub. Yarışın sonuncu günü Azərbaycan millisi aktivinə bir qızıl və bir bürünc medal yazdırıb.



Turnirdə 100 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən Elxan Məmmədov mübarizəyə dörddəbir final mərhələsindən qoşulub. Qazaxıstanlı Aybek Serikbayev və xorvatiyalı Zlatko Kumriç üzərində qələbə qazanan cüdoçumuz həlledici görüşdə Braziliya təmsilçisi Lusiano Korreanı məğlub edərək qızıl medala sahib olub. Beynəlxalq turnirdə 90 kiloqram çəki dərəcəsində mübarizə aparan Tural Səfquliyev ilk görüşündə Seyşel adalarının idmançısı Nantenaina Finessini məğlub edib. Lakin ikinci qarşılaşmasında serbiyalı Aleksandr Kukolja uduzaraq, təsəlliverici görüşə qatılıb. T.Səfquliyev bu mərhələdə braziliyalı Eduardo Bettoniyə qalib gəlib. O, növbəti rəqibi Almaniya təmsilçisi Hannes Konardı da məğlub edərək bürünc medala sahib olub.

Digər cüdoçularımızdan Cəlil Şükürov (100 kq) 7-ci yeri tutub, Firudin Dadaşov (90 kq) isə mübarizəni erkən dayandırıb. Qeyd edək ki, turnirin ikinci günündə Rüstəm Orucov (73 kq) gümüş medal qazanıb.

Xatırladaq ki, 34 ölkədən 157 cüdoçunun (96 kişi, 61 qadın) mübarizə apardığı turnirdə Azərbaycan millisi 12 idmançı ilə təmsil olunub.

## Velotrekdə gənclər üçün seminar

Azərbaycan Velosiped İdmanı Federasiyası və «İB Club»un təşkilatçılığı ilə Respublika Velotrekində gənclər üçün seminar təşkil olunub. Seminarda 80-ə yaxın gənc iştirak edib.

«Velosiped sürməyin insan orqanizminə faydaları» mövzusuna həsr olunmuş seminardan əvvəl iştirakçılar Respublika Velotrekində idmançılar üçün yaradılan şərait və Velosiped Muzeyi ilə tanış olublar.

Tədbir zamanı gənclərə əyani vəsaitlər vasitəsilə velosiped sürməyin insan sağlamlığına xeyirli tərəfləri barədə məlumat verilib, yeniyetmələr arasında maarifləndirmə işlərinin genişləndirilməsinin vacibliyi vurğulanıb.

## Sərbəst güləşçilərimizdən dörd medal

Dağıstan Respublikasının Buynak rayonunda dövlət xadimi Xizri Şıxsaidovun mükafatı uğrunda sərbəst güləş üzrə beynəlxalq turnir keçirilib. Yarışda ölkəmizi təmsil edən pəhləvanlarımız da iştirak ediblər. Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, turnirə qatılan sərbəst güləş üzrə yığma komandamızın üzvləri 4 medala sahib olublar.

Yığmamızı təmsil edən güləşçilərdən Ənvərbəy Dalqatov (65 kq), Məhəmməd Abdullayev (74 kq), Əli İsayev və Umar İsrailov (hər ikisi 125 kq) fərqləniblər. Onların hamısı bürünc medal qazanıb. Turnirdə 65 kiloqram çəki dərəcəsində mübarizə aparan Davud İbrahimov isə 5-ci yerdə qərarlaşıb.

## mozaika

texnologiya




**İsveçin Çalmers Universitetinin tədqiqatçıları Andreas Dalin və Kun Li Sun mikrometrdən də az qalınlığı olan rəngli elektron kağız hazırlayıblar. Kağız funksiyalarına görə LED-ekranlarla oxşar olsa da, adi planşetdən on dəfə az enerji sərf edir.**

A.Dalinin sözlərinə görə, rəngli kağız Kindle planşetinin ekranını xatırladır. O, ənənəvi ekranlar kimi işıqlanmır, lakin xarici işığı daha tez əks etdirdiyindən kifayət qədər işıqlandırma olduqda yaxşı işləyir. Bu da kağızı qaranlıqda daha təsirli olan işıq diodu ekranlarından fərqləndirir. Hər şey polimerlərin əks olunan işığın miqdarına nəzarət etmək qabiliyyətindən asılıdır. Bütün səthi örtən polimerlər ekran vasitəsilə elektrik siqnallarını keçirir və yüksək ayırdetmə dəqiqliyinə malik təsvir yaradır.

Artıq bir neçə piksel nümunəsi sınaqdan keçirilib. Alimlər qırmızı, göy və yaşıl rənglərdən istifadə ediblər ki, onlar da LED-ekranlarda olduğu kimi, qalan digər rəngləri birlikdə təşkil edirlər. Hazırda tədqiqatçılar ekranın bütün səthini örtəcək piksellərin hazırlanması ilə məşğuldurlar. A.Dalin hesab edir ki, elektron kağız əsasında ekranlar yaxşı işıqlandırılmış ictimai yerlərdə məlumatlar, göstəricilər və informasiya ekranlarının təsviri üçün nəzərdə tutulmuş tablolarda tətbiq edilə bilər.

təbiət

## Yosunlar çiçəkləyəndə...

Bu, təbiət üçün heç də xoş əlamət sayılmır. Yosunların çiçəklənməsi balıq ehtiyatlarının tükənməsinə, balıqçılıq təsərrüfatının məhvinə gətirib çıxarır, insanlara və iri dəniz heyvanlarına xəstəlik və ölüm gətirir.

BMT-nin Xəbərlər Mərkəzi UNESCO ekspertlərinin tədqiqatına əsaslanaraq belə bir məlumat yayıb. Tədqiqat müəllifləri bu tendensiyanın genişlənməsi barədə xəbərdarlıq edirlər. Yosunların çiçəklənməsi ABŞ-ın Florida ştatının, Hindistanın və Omanın sahil ərazilərində müşahidə olunur. Zərərli kimyəvi maddələrin istehsalı və tullantısının məhdudlaşdırılması üzrə görülən tədbirlərə baxmayaraq, bu hal Adriatik və Baltik dənizlərində də çoxalıb.

Müsbət təcrübə də var: dənizə atılan tullantıların məhdudlaşdırılması nəticəsində Yapon dənizində yosunların zərərli çiçəkləmə halı tamamilə dayanıb.



ELAN

«Vergilər» qəzetinə 2017-ci il üçün abunə kampaniyası davam edir

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22

sağlam həyat tərzi

## Depressiya ilə mübarizə

Dünya Səhiyyə Təşkilatı (DST) depressiya ilə mübarizə ilinin başlandığını elan edib. DST-nin rəsmi saytında yayılan xəbərə görə, 2017-ci ildə Ümumdünya Sağlamlıq Günü ilə əlaqədar keçiriləcək kampaniya depressiya mövzusuna həsr olunacaq. Kampaniyanın əsas məqsədi depressiya, onun səbəbləri və fəsadları, xəstəliklə mübarizə metodları barədə əhalinin məlumatlılığını artırmaqdır. Mütəxəssislərin əsas mövzular üzrə hazırladıqları materiallarda, həmçinin, istiqamətverici informasiya blokları mövcuddur. Məhz bu informasiyalar əsasında ilk növbədə xəstələrin doğmaları və yaxınları onlara yardım göstərə biləcək, lazım gələrsə, həkimə müraciət edəcəklər.

Bütün ölkələrdə müxtəlif kateqoriyalarda və yaşda olan insanlar depressiyadan əziyyət çəkirlər. Depressiya psixi əzab verir, hətta ən adi gündəlik vəzifələri yerinə yetirmək üçün insan qabiliyyətinə mənfi təsir göstərir, dostlar və yaxınlarla münasibətləri korlayır. Bu gün depressiya 15-29 yaşlı insanlar arasında intihara daha çox səbəb olur.



tədqiqat

## Ömrün uzunluğu insanın intellektindən asılıdır

Alimlərin apardığı tədqiqatlara əsasən, təhsil səviyyəsi daha yüksək olan insanlar, xüsusən yaşlılar arasında ölüm göstəricisi aşağıdır. Araşdırmalara görə, insan ömrü orta hesabla təxminən iki faiz artıb. Bu göstərici onların intellekt səviyyəsindən, o cümlədən bir çox amillərdən asılı olaraq dəyişir.

Almaniyanın Maks Plank adına Demoqrafik Araşdırmalar İnstitutunun elmi işçilərinin apardıqları tədqiqatlar nəticəsində məlum olub ki, yüksək təhsilli insanlar orta hesabla bir neçə il çox yaşayırlar. Mütəxəssislər bu fenomeni izah etməyə cəhd göstərərək bildiriblər ki, insanlar yüksək intellektləri və bundan əldə olunan maddi imkanlar nəticəsində öz sağlamlıqlarını qoruya bilirlər.

qlobal problem

## Kənd təsərrüfatı iqlim dəyişikliyinə uyğunlaşmalıdır

Dünya əhalisinin sayı durmadan artır və 2050-ci ilədək 9,6 milyarda çatacağı gözlənilir. Bu baxımdan, ərzaq sənayesində tələbatı ödəmək getdikcə çətinləşir. İqlim dəyişiklikləri isə ərzaq sabitliyinə xüsusilə ciddi problem yaradır. Axı dünyanın ən yoxsul əhalisi, eləcə də fermerlər, balıqçılar və maldarlar yüksək temperatur və tez-tez baş verən təbii qəzalardan daha çox əziyyət çəkirlər.

Bu məlumatı BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) Dünya Ərzaq Günü münasibətilə xatırladıb. Ekspertlərin fikrincə, təsərrüfat praktikasını elə dəyişmək lazımdır ki, eyni əkin sahəsindən daha çox məhsul götürülsün və təbii ehtiyatlardan rasional istifadə etmək mümkün olsun.

Ərzaq sistemləri iqlim dəyişikliklərinin əlverişsiz nəticələrinə uyğunlaşmalı və xarici təsirlərə müqavimət qabiliyyətini artırmalıdır. Həmçinin ərzaq itkilərini bütün mərhələlərdə azaltmaq zəruridir. Bu gün istehsal edilən ərzağın üçdəbiri zibilliyə atılır.

FAO ölkələri iqlim üzrə öz fəaliyyət planlarında ərzaq və kənd təsərrüfatına diqqət yetirməyə və kənd təsərrüfatı rayonlarının inkişafına daha çox sərmayə qoymağa çağırır.

### Müdriklər deyib ki...



*«Mənim göydə ulduzlarım var,*
*lakin öz evimdə yanan hisli çırağın həsrətini çəkirəm».*
*Rabindranat Taqor (1861-1941)*